XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...



# BİNƏQƏDİ

Heydər Əliyev bütün Azərbaycanı, Heydər məscidi isə dini məzhəbləri birləşdirdi

səh. 6

№02 (139) | 29 yanvar 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik

## Prezident İlham Əliyev: “2016-cı il ciddi iqtisadi islahatlar dövrü olacaq”

Yanvarın 26-da «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.




Konfransda nitq söyləyən dövlətimizin başçısı bildirib ki, 2015-ci ildə dünyada iqtisadi böhranın daha da dərinləşməsinə baxmayaraq, ötən il Azərbaycanda bir çox məsələlər uğurla həll olunub. «Asan olmayan geosiyasi vəziyyəti və dünya iqtisadi böhranını nəzərə alsaq, bu, bizim böyük uğurumuzdur», - deyən dövlətimizin başçısı regionda baş verən münaqişələrin və Avropadakı miqrant böhranının radikal qüvvələrin güclənməsinə səbəb olduğunu, bunun da dünya üçün böyük təhlükə yaratdığını bildirib. «Biz bu vəziyyətdə daha fəal işləməli, ölkə qarşısında duran məsələləri həll etməliyik», - deyən Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun artdığını vurğulayıb.

Dövlətimizin başçısı ölkədə ictimai-siyasi sabitliyin qorunduğunu və bununla bağlı tədbirlərin icra edildiyini də diqqətə çatdırıb. Keçən il demokratik inkişaf istiqamətində önəmli addımların atıldığını, Azərbaycanda siyasi və iqtisadi islahatların demokratik inkişafla paralel aparıldığını vurğulayan dövlətimizin başçısı parlament seçkilərindən də danışıb, seçkilərin şəffaf, ədalətli keçirildiyini və xalqın maraqlarını əks etdirdiyini bildirib. Ötən il ölkəmizin iqtisadi inkişafının təmin olunduğunu söyləyən Azərbaycan Prezidenti qeyri-neft sənayesinin 8,4 faiz, kənd təsərrüfatının 6,6 faiz artdığını deyib, enerji sektorunda, xüsusilə də «Cənub» qaz dəhlizinin icrası ilə bağlı mühüm addımların atıldığını diqqətə çatdırıb. «Biz Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çeviririk», - deyən Prezident İlham Əliyev artıq Asiyadan Avropaya və yaxud əksinə daşınan yüklərin Azərbaycan ərazisindən keçdiyini, ötən il bütün sosial proqramların icra olunduğunu bildirib, qarşıdakı dövrdə heç bir sosial layihənin ixtisar olunmayacağını vurğulayıb.

Dövlətimizin başçısı manatın məzənnəsinin aşağı düşməsinin obyektiv səbəblərdən irəli gəldiyini bildirib, 2016-cı ilin ciddi iqtisadi islahatlar dövrü olacağını, artıq bununla bağlı müəyyən addımların atıldığını deyib. 2004-cü ildən regionların inkişafı ilə bağlı fəaliyyətdə olan Dövlət Proqramını xalqımızın həyatında tarixi hadisə adlandıran Prezident İlham Əliyev vurğulayıb ki, son 12 ildə 25 elektrik stansiyası tikilib, ölkə üzrə qazlaşdırma 90 faizə yaxınlaşıb, bütün şəhərlərimiz «mavi yanacaq»la təmin olunub, 10 min kilometrdən çox yol çəkilib, xeyli sosial layihələr icra edilib, 3 min məktəb, 600-ə yaxın xəstəxana, 41 olimpiya mərkəzi tikilib, maaşlar 5 dəfə, pensiyalar 7 dəfə artıb, məcburi köçkünlər üçün 225 min insanın yaşadığı 89 şəhərcik salınıb. Bütün bunların da xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətləri, onun siyasi irsinin uğurları sayəsində mümkün olduğunu deyən dövlətimizin başçısı liberal siyasəti ilə seçilən Azərbaycanın artıq böyük enerji və kosmik layihələri icra edən bir ölkəyə çevrildiyini bildirib.

Konfransda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ili çərçivəsində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb.

Konfransda yekun nitqi söyləyən dövlət başçısı İlham Əliyev bildirib ki, Azərbaycanda Sahibkarlığın inkişafı üçün çox işlər görülüb: “ Bu gün Azərbaycan iqtisadiyyatının böyük hissəsi - 80 faizdən çoxu özəl sektorda formalaşıb. Bu, son illər ərzində görülmüş işlərin nəticəsidir. Ancaq yeni dövr, yeni vəziyyət yeni yanaşmalar tələb edir. Ona görə indiki şəraitdə sahibkarlığı daha da genişləndirmək, sahibkarlara daha da yaxşı şərait yaratmaq, yerli istehsalı sürətləndirmək üçün əlavə tədbirlər görülməlidir. Mən artıq müvafiq dövlət qurumlarına göstəriş vermişəm. Ancaq çox istəyirəm ki, yerlərdən sahibkarlar özləri də o problemləri dilə gətirsinlər, ortaya qoysunlar ki, onlar tezliklə öz həllini tapsın.

Bu ilin planları ilə bağlı ilk növbədə demək istəyirəm ki, bütün sosial proqramlar tam icra ediləcək. Bildiyiniz kimi, maaşlar, pensiyalar və sosial müavinətlər qaldırıldı. Sosial müdafiə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bazar iqtisadiyyatına sadiqdir. Bazar iqtisadiyyatı Azərbaycanda uğurla inkişaf edir. Ancaq islahatları apararkən biz hər zaman sosial məsələləri yadda saxlamalıyıq. Unutmamalıyıq ki, biz xalq üçün çalışırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərini biz həll etməliyik. Ona görə, bizim bütün səylərimiz, o cümlədən iqtisadi inkişaf bu məqsədə qulluq etməlidir. Ona görə, Azərbaycanda güclü sosial siyasət aparılır, aparılacaq və imkan daxilində bütün sosial proqramlar daha da geniş şəkildə icra ediləcək.

Bu il regionlarda nəzərdə tutulan bütün infrastruktur layihələri icra edilməlidir. Bir çox layihələr artıq icra edilmişdir. Mən giriş sözümdə bu barədə öz fikirlərimi dedim, amma hələ ki, elektrik enerjisi, qazlaşdırma, xüsusilə kənd yollarının tikintisi ilə bağlı görüləsi işlər də çoxdur. Mən hesab edirəm ki, bu il kənd yollarının tikintisinə əlavə böyük vəsait ayrılmalıdır. Çünki ilk növbədə buna ehtiyac var. Yerlərdən təkliflər irəli sürülür. Eyni zamanda, bu, bölgələrdə insanları bu işlərə cəlb edəcək və olan işsizliyi də aradan götürəcək. Biz son illər ərzində işsizliyə qarşı çox fəal işləmişik. Bunun nəticəsidir ki, Azərbaycanda işsizlik son illər ərzində beş faizə düşmüşdür. Bu, doğrudan da bizim tarixi nailiyyətimizdir. İşsizlik ilə bərabər, həmçinin yoxsulluq da beş faizə düşmüşdür. Ancaq indiki şəraitdə işsizlik arta bilər və artır. Düzdür, yeni iş yerləri açılır və iş yerləri bağlanır. Misal üçün keçən il 80 mindən çox daimi iş yeri açılmışdır, 40 min iş yeri bağlanmışdır. Biz bu il də bu statistikanı düzgün aparmalıyıq. O yerlərdə, o bölgələrdə ki, iş yerləri bağlanır, orada daha da böyük həcmdə işlər getməlidir. Həm dövlət qurumları, eyni zamanda, özəl sektor da bu məsələni diqqətdə saxlamalıdır.

*Davamı səh. 2-də*

## İlham Əliyev Almaniya və Bolqarıstanın statistika qurumlarının rəhbərlərini qəbul edib



Prezident İlham Əliyev Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayteri və Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarskini qəbul edib.

Dövlətimizin başçısı “Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə dəstək” Tvinninq layihəsinin ikinci fazasının təqdimatı ilə bağlı keçirilən konfransın əhəmiyyətini qeyd etdi. Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarski layihənin birinci fazasının icrası zamanı ölkəmizdə Tvinninq üzrə rezident-müşavir vəzifəsində çalışdığı müddətdə görülən işlərdən danışdı.

Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayter səmərəli siyasətin işlənib hazırlanmasında düzgün statistik məlumatların əldə edilməsi və istifadə olunmasının vacibliyinə toxundu, bu sahənin təkmilləşdirilməsinin əhəmiyyətini vurğuladı.

## Azərbaycan ilə İsrail arasındakı münasibətlər inkişaf edir



Prezident İlham Əliyevin Davosda İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşü olub. Görüşdə Azərbaycan ilə İsrail arasında münasibətlərin inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

HESABAT səh. 3



Görülən işlərə nəzər yetirilib, qarşıda duran vəzifələr müzakirə olunub

QÜRUR GÜNÜ səh. 4



20 Yanvar şəhidlərinin xatirəsi anılıb

ANIM səh. 5



Təki Vətən sağ olsun!

## Dövlət başçısı ATƏT Parlament Assambleyasının nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev ATƏT Parlament Assambleyası sədrinin müavinləri Georgi Tseretelinin və Kent Harstedtin başçılıq etdiyi, ATƏT PA-nın baş katibi Roberto Montellanın daxil olduğu nümayəndə heyətini qəbul edib.

Georgi Tsereteli ATƏT Parlament Assambleyasının sədri İlkka Kanervanın xəstəliyi ilə bağlı Azərbaycana səfər edə bilməməsini təəssüflə qeyd etdi. O, ölkəmizin təmsil etdiyi qurum üçün prioritet olduğunu və Azərbaycan ilə əməkdaşlığın böyük əhəmiyyət daşıdığını dedi. Georgi Tsereteli ATƏT-in həyata keçirdiyi layihələrdə Azərbaycanın iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı ATƏT Parlament Assambleyası sədrinin müavini Georgi Tseretelinin ölkəmizə səfərinin məhsuldar və səmərəli olacağına ümid etdiyini bildirdi. Görüşdə Azərbaycan ilə ATƏT-in Parlament Assambleyası arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## Prezident İlham Əliyev:

# “2016-cı il ciddi iqtisadi islahatlar dövrü olacaq”

*Əvvəli səh. 1-də*

Kənd yollarının tikintisi isə bu istiqamətdə çox önəmli addımdır, iki məqsədi güdür - həm infrastruktur yaxşılaşır, həm insanlar işə cəlb olunur. Kənd yollarının tikintisində bizim xarici komponentə heç bir ehtiyacımız yoxdur. İçməli su layihələri də icra edilməlidir. Bu layihələr insanları içməli su ilə təmin edəcək və edir, yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq. Biz içməli su layihələrinin icrasında da bu işləri daxili istehsalla təmin edirik. Son illər ərzində daxili istehsala verdiyimiz diqqət, qoyduğumuz sərmayə, bax, indi bu reallığı təmin edir. Əgər biz bunu etməsəydik indi idxaldan daha da çox asılı vəziyyətdə olacaqdıq.

Mən bu barədə hələ danışacağam. Ona görə, infrastruktur layihələri icra edilməlidir. Bəziləri hesab edir ki, neftin qiymətinin 4 dəfə düşməsi ilə bağlı biz xərcləri daha da ixtisar etməliyik. Təbiidir ki, bu, belədir. Ancaq hesab edirəm ki, biz 2016-cı ildə infrastruktur və biznes layihələrini icra etməklə ölkəmizə daha da böyük dinamizm verə bilərik və biz bunu edəcəyik.

Yeni iş yerlərinin yaradılması bu il xüsusi əhəmiyyət kəsb edir. Çünki qeyd etdiyim kimi, bəzi iş yerləri bağlanır. Son 12 il ərzində 1 milyon 500 min iş yeri yaradılmışdır. Onlardan 1 milyonu daimi iş yeridir. Ancaq bu illər ərzində Azərbaycanın əhalisi artmışdır. Əlbəttə ki, bu da inkişafın əlamətidir. 2003-cü ildə Azərbaycan əhalisi 8,4 milyon idisə, bu il 9,7 milyondur. Əgər o artım dinamikasına nəzər salsanız görərsiniz ki, sürətli inkişaf dövründə əhali daha da çox artır. Bu, üstünlükdür, amma, eyni zamanda, - mən bunu artıq neçə dəfə demişəm, - bu, bizi daha da fəal işləməyə çağırır. Şəhərsalma işi daha da düşünülmüş şəkildə aparılmalıdır. Bizim şəhərlərimiz böyüyür. Şəhər infrastrukturu buna uyğun şəkildə qurulmalıdır..

İndiki şəraiti nəzərə alaraq hesab edirəm ki, sahibkarlar da yeni iş yerlərinin yaradılması istiqamətində əlavə tədbirlər görə bilərlər. Mənə verilən məlumata görə, son 12 il ərzində Azərbaycanda 70 mindən çox müəssisə yaradılmışdır və ümumiyyətlə, müəssisələrin sayı 100 minə yaxındır. Onların içində əlbəttə ki, böyük və kiçik müəssisələr var. Ancaq hesab edirəm ki, əgər iş adamları bu məsələyə sosial məsuliyyət nöqteyi-nəzərdən yanaşsalar və işsiz qalan insanları işə götürsələr, yaxud da ki, ixtisar etmək istədikləri insanları ixtisar etməsələr onlar ümumi işimizə töhfə verərlər.

Bununla bərabər, artıq mən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Azərbaycan dövlət şirkətlərinə tapşırıq vermişəm ki, birgə işləsinlər. Məşğulluq idarələrinə müraciət edən insanları işlə təmin etmək üçün dövlət şirkətlərində yeni vakansiyalar açılmalıdır. Əlbəttə, bir daha demək istəyirəm ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bu prinsipdən dönməyəcəyik. Özəl sektor bu amili nəzərə alsın. Xüsusilə, nəzərə alsaq ki, dövlət sahibkarlığın inkişafına bu qədər kömək göstərir, həm siyasi, həm metodoloji dəstək verir. İqtisadiyyat Nazirliyi bütün layihələr üzrə biznes planlar hazırlayır, maliyyə dəstəyi verir.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində işlər aparılır, müvafiq göstərişlər, tapşırıqlar, sərəncamlar verilmişdir. Bu sahə mütləq daim diqqət mərkəzində olmalıdır.

Ona görə, biznes, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadi, maliyyə sektorlarının, vergi, gömrük orqanlarının tam şəffaflaşması, vergi bazasının genişləndirilməsi, uçotun, statistikanın düzgün aparılması – bax, bütün bunlar çox vacib olan məsələlərdir. Deyə bilmərəm ki, bu məsələlərin həllində biz istədiyimizə nail ola bilmişik. Yox, hələ ki, görüləsi işlər çoxdur. Qüsurlar var, onlar aradan götürülür, götürülməlidir. Biz mütləq daxili bazarımızı, yerli istehsalı qorumalıyıq, bununla bərabər, inhisarçılığa yol verməməliyik. Bu da çox ciddi məsələdir. Çünki, əlbəttə, mən çox istəyirəm ki, Azərbaycan məhsulları daha da çox istehsal olunsun, biz idxaldan asılılığı daha da azaldaq, iş yerləri yaradılsın, ixrac qabiliyyətli məhsullar istehsal edək. Ancaq bununla bərabər, əgər biz idxal mallarına süni əngəllər qoysaq, bu zaman rəqabət olmayacaq. Amma rəqabət əsasdır. Hər bir ölkənin inkişafı üçün azad, ədalətli, sərbəst rəqabət əsas şərtdir. Ona görə, burada iki amil nəzərə alınmalıdır. Həm qiymətlərin tənzimlənməsi, bütün süni maneələr, idxal qarşısında duran maneələr aradan götürülməlidir, eyni zamanda, daxili istehsal qorunmalıdır. Ona görə, müvafiq qurumlar çox fəal işləməlidirlər ki, bu iki amili təmin etsinlər. Yerli istehsal, idxaldan asılılığın azaldılması bizim gələcək dayanıqlı inkişafımızın əsas məsələsidir. Ancaq, eyni zamanda, inhisarçılığa da yol vermək olmaz. Bəzi hallarda bizdə təbii inhisarçılıq yaradılır. Çünki bazar o qədər də böyük deyil. Hər hansı bir, ya iki böyük müəssisə görürsən ki, bütün bazarı öz əlinə götürür. Burada əlbəttə ki, Antiinhisar Xidmətinin rolu xüsusilə əhəmiyyətlidir. Biz elə etməliyik ki, sərbəst rəqabətə mane olan bütün amillər aradan götürülsün.



Azərbaycanda rəqabətqabiliyyətli məhsulu istehsal edən, bunu dünya bazarına çıxaran sahibkarlara dövlət tərəfindən güzəştlər edilməlidir. İndi İqtisadiyyat Nazirliyi bu məsələlərlə bağlı işləyir və hesab edirəm ki, sahibkarlar da bugünkü konfransda bu məsələ ilə bağlı öz təkliflərini verməlidirlər.

Mən artıq bəyan etmişəm, bir daha demək istəyirəm ki, Azərbaycanda genişmiqyaslı özəlləşdirmə proqramı icra ediləcəkdir. Buna böyük ehtiyac var. İlk növbədə, bu, ölkəmizə əlavə sərmayə, valyuta gətirəcək. Digər tərəfdən, biz işləməyən müəssisələri canlandıracağıq. Elə müəssisələr var ki, artıq 20 ildir dayanıb, qapısı qıfıllanıb, yarıdağılmış, yaxud dağılmış vəziyyətdədir və onlar nədənsə özəlləşdirməyə çıxarılmır.

İlk növbədə, ciddi təhlil aparılmalıdır. Hansı müəssisələr ilk növbədə özəlləşməyə açılmalıdır və özəlləşdirmə nəticəsində ölkə iqtisadiyyatı hansı dividendlər götürəcək. Əlbəttə, hər bir özəlləşdirilən müəssisənin gələcək fəaliyyəti ilə bağlı biznes plan təqdim edilməlidir.

Bank sektorunun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində əlavə tədbirlər görüləcək. Əmanətlərin sığortalanması məsələsinə baxılıb. Hesab edirəm ki, bu, dövlət tərəfindən atılan çox ciddi addımdır. Ancaq bank sektorunun sağlamlaşdırılması prosesi daha sürətlə getməlidir. Burada inkişaf üçün çox böyük imkanlar var. Biz bank sektorunu sağlamlaşdırmalıyıq. Bu, hər bir ölkə üçün çox vacib məsələdir..

Qeyd etdiyim kimi, qeyri-neft sənayesi sürətlə artmışdır - 8,4 faiz. Azərbaycanda sənayeləşmə prosesi gedir. Texnoparklar yaradılır, sənaye klasterləri yaradılmalıdır. Mən artıq göstəriş vermişdim ki, hər bir rayonda sənaye zonaları yaradılsın. Ancaq bu proses ləng gedir. Burada oturan bütün şəhər, rayon icra başçıları da bu işlərdə daha fəal olmalıdırlar. Onlar, İqtisadiyyat Nazirliyi və sahibkarlar bu işi görməlidirlər. Bu gün fasilədən sonra bu məsələ mütləq müzakirə edilməlidir. Hər bir rayondan ayrılacaq sahələrlə bağlı konkret təkliflər verilməlidir. İcra başçıları özləri bu işlərə çox ciddi fikir verməlidirlər. Ümumiyyətlə, bölgələrimizə investisiya axınını daha çox Azərbaycan dövləti, sahibkarlar təşkil edirdi. Hesab edirəm ki, yerli icra hakimiyyəti orqanları bu işlərdə daha da fəal olmalıdırlar. Onların fəaliyyətinə veriləcək qiymət böyük dərəcədə bu amildən asılı olacaq: nə qədər investisiya cəlb etmisən, sahibkarlara nə qədər şərait yaratmısan, nə qədər müəssisə yaradılıb, nə qədər yeni iş yeri açılıb?! Ona görə, ilk növbədə, hər bir yerdə statistika düzgün aparılmalıdır ki, burada şişirtmə olmasın. Çünki bu, elə köhnə xəstəlikdir və işlər düzgün qurulmalıdır. Ona görə bu il hər bir rayonda sənaye zonalarının yaradılması başlamalıdır.

Ümumiyyətlə, mən bizim özümüzü qeyri-qida məhsulları ilə təminetmə imkanlarımız haqqında bir neçə rəqəmi gətirmək istəyirəm. Bu, həm görülən işləri əks etdirir, həm də sahibkarlara, icra başçılarına, dövlət qurumlarının nümayəndələrinə bir növ yol xəritəsi olacaqdır - harada boşluqlar var və hansı işlər görülməlidir.

Keçən il Azərbaycanda “Kənd təsərrüfatı ili” idi. Kənd təsərrüfatı 6,6 faiz artmışdır. Bu, çox yaxşı göstəricidir. Məhsuldarlıq artmışdır, xüsusilə taxılçılıqda. İri fermer təsərrüfatlarının fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Orada məhsuldarlıq orta məhsuldarlıqdan təxminən iki dəfə çoxdur. Ona görə, bu, bir nümunədir. Biz iri fermer təsərrüfatlarının yaradılmasını bu il də davam etdirməliyik. Bu, bizə imkan verəcək ki, idxaldan asılılığı azaldaq. Ancaq biz kiçik və orta fermer təsərrüfatlarını da yaddan çıxarmamalıyıq. Onlara da daim diqqət göstərilməlidir, şərait yaradılmalıdır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün prioritet məsələdir. Keçən il bir neçə fərman imzalanmışdır. Bu fərmanların praktik nəticələri artıq görünməkdədir. Əlavə vəsait ayrılmışdır. Bizim üçün kənd təsərrüfatı o sahədir ki, qeyri-neft ixracımızı, ərzaq təhlükəsizliyini, insanları işlə təmin edəcək. Ona görə, keçən il “Kənd təsərrüfatı ili” olmuşdur. Ancaq hesab edin ki, bu il də “Kənd təsərrüfatı ili”dir. Hər il “Kənd təsərrüfatı ili” olmalıdır.

İslahatlar daha da dərinləşməlidir. Torpaq fondunun dəqiq uçotu aparılmalıdır. Biz yenə də uçota gəlirik. Çünki burada da bəzi hallarda uyğunsuzluq var. Vaxtilə verilmiş torpaq sahələri, real, faktiki sahələr sənədlərdə olan sahələrlə üst–üstə düşmür. İndi də bizim peyk imkanlarımız var - “Azərsky”. Mən onlara da tapşırmışam ki, mütləq bizim bu torpaq fondumuzun dəqiq uçotu aparılsın. Yəni, kağızda verilir bir sahə, amma real fermer başqa sahədə işləyir. Burada biz bu uyğunsuzluğu aradan götürməliyik. Hesab edirəm ki, əlbəttə, sənədləşmə dəqiq aparılmalıdır. Çünki biz indi fermerlərə deyə bilmərik ki, bu sənin sahən deyil. Harada işləyir, o da onun mülkiyyətidir. Ancaq düzgün uçot və sənədləşmə aparılmalıdır. Bu iş vaxt tələb edir. Hesab edirəm ki, bu il bu istiqamətdə ciddi addımlar atılmalıdır. “Elektron kənd təsərrüfatı” proqramı icra edilir. Bu yaxınlarda mənə məruzə edilmişdir. Biz bunu daha da geniş yaymalıyıq.

Turizmin inkişafı daha sürətlə getməlidir. Xüsusilə, Avropa Oyunlarından sonra Azərbaycana dünyada maraq daha da artdı. Biz bundan istifadə etməliyik. Nə qədər çox turist gəlsə, Azərbaycanı o qədər də çox adam tanıyacaq və turistlər ölkəmizə valyuta gətirəcəklər. Son 12 il ərzində Azərbaycanda 300-ə yaxın mehmanxana tikilmişdir. Bizim indi dünya səviyyəli kurortlarımız var – Şahdağ kurortu, Naftalan kurortu. Qəbələ beynəlxalq kurort mərkəzinə çevrilibdir və Qalaaltı müalicəvi kurort mərkəzidir. Naxçıvanda Duzdağ kurort mərkəzi yaradılıbdır. Sadəcə daha fəal olmalıyıq ki, turistləri cəlb edək. Burada vizaların sadələşdirilməsi işində əlavə tədbirlər görülüb ki, biz daha da çox turist axınını təmin edək. Azərbaycanın turistləri maraqlandıran ənənəvi sənət növləri də inkişaf etməlidir, o cümlədən xalçaçılıq. Bu, bizim böyük milli sərvətimizdir. Hesab edirəm ki, indi, xüsusilə kəndlərdə şərait yaradılmalıdır ki, qadınlar xalçaçılıqla məşğul olsunlar. Onlar materiallarla, dəzgahlarla, iplərlə təmin olunmalıdırlar, xalça toxusunlar, pul qazansınlar və biz bu malları da xarici bazarlara çıxara bilək.

Bu il də ekoloji tədbirlər görülməlidir. Xüsusilə ağacəkmə prosesi gedir. Ağacəkməyə insanları daha çox cəlb etmək olar, xüsusilə bölgələrdə. Burada müvəqqəti iş yerləri yaradılmalıdır. Yerli icra orqanları, Ekologiya və Təbii Sərvətlər Nazirliyi təkliflər hazırlasınlar ki, bu il biz nə qədər ağac əkəcəyik, nə qədər insan bu işlərə cəlb ediləcəkdir.

Bütövlükdə demək istəyirəm ki, indi - dünyada böhran yaşanan dövrdə bir çox ölkələrdə ictimai işlərə daha çox üstünlük verilir. Bizdə böhran yoxdur. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir və inkişafımız dayanıqlı olacaq.

Ancaq mən istəyirəm ki, Azərbaycanda, ümumiyyətlə, işsiz adam olmasın. Hər kəs iş tapa bilmir. Ona görə verdiyim tövsiyələr və tapşırıqlar mütləq icra edilməlidir. Bu il biz müvəqqəti ictimai işlərə daha çox insanı cəlb etməliyik. Onlara maaş veriləcək və onlar da xalq, dövlət üçün çalışsınlar.

İstehlak qiymətlərinə nəzarət daim olmalıdır. Süni bahalaşmaya qarşı mübarizə aparılır və aparılacaq, cəza tədbirləri görülür. Söhbət süni bahalaşmadan gedir.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə gedir, öz bəhrəsini verir. Korrupsiya böyük bəladır, bütün ölkələr üçün, o cümlədən Azərbaycan üçün. Biz həm cəza tədbirlərini tətbiq edirik, inzibati addımlar atılır, həm də institusional tədbirlər görülür. Korrupsiya, rüşvətxorluq üçün meydan daralır, yeni ictimai xidmətlər yaradılır. “ASAN xidmət” iki il ərzində artıq yeddi milyon insana xidmət göstərib. Bu yeddi milyon insan bu iki il ərzində “ASAN xidmət”də korrupsiyanın nə olduğunu görməyib. Ancaq əvvəlki dövrlərdə hansı qapıya gedirdilərsə, onlardan qanuni arayışa, icazəyə və s. görə nə isə tələb olunurdu. İnstitusional tədbirlər çox səmərəlidir. Bununla bərabər, korrupsiyaya qarşı cəza tədbirləri də tətbiq ediləcək, edilir. Burada heç kimin imtiyazı ola bilməz. Heç kim toxunulmaz deyil. Son hadisələr Azərbaycanda bir daha onu göstərdi. Əgər bəzi yüksək vəzifəli şəxslər qanunu pozurlarsa, öz vəzifə borclarını yerinə yetirə bilmirlərsə onlar mütləq cəzalandırılacaq və cəzalandırılır. Xalq da, ictimaiyyət də bunu görür. Hamı bilsin, Azərbaycanda bir nəfər də olsun toxunulmaz adam yoxdur. Hamı qanun qarşısında bərabərdir.

Dövlət məmurları və onların ailə üzvləri özlərini təvazökar aparmalıdırlar. Xalqla bir yerdə olmalıdırlar, yekəxanalıq göstərməməlidirlər. Hesab etməməlidirlər ki, onların hansısa xüsusi statusu var. Onların statusu var - insanlara xidmət etmək, insanların problemlərini həll etmək, onlara qayğı göstərmək. İnsanları incitməməlidirlər, əksinə, qayğı, diqqət göstərməlidirlər və kömək etməlidirlər. Dediyim bütün bu amillər onların fəaliyyətinə verilən qiymətdə əsas rol oynayacaq.

Sahibkarlar ölkə iqtisadiyyatına daha çox vəsait qoysunlar. Mən bilirəm, indi Azərbaycan sahibkarları xaricə də investisiya qoyurlar. Mən özüm də həmişə bunun tərəfdarı olmuşam, istəyirdim ki, bizim firmalar dünya bazarlarına çıxsınlar, onları tanısınlar. İndi söhbət düşmüşkən deyim ki, mən həmişə, hətta xarici səfərlərdə Azərbaycan sahibkarlarını təbliğ edirəm, istəyirəm onlar xaricdə fəaliyyət göstərsinlər. Ancaq indiki şəraitdə sahibkarların əsas vəsaiti Azərbaycana qoyulmalıdır. Sahibkarlar, əlbəttə, məsuliyyətli olmalıdırlar, vergiləri tam ödəməlidirlər. Bunu etmək üçün vergi uçotu düzgün aparılmalıdır. Çünki bəzi hallarda sahibkarın yanına gəlib deyirlər ki, sən filan qədər verməlisən. Yəni, dövlətə verməlisən, mən bunu nəzərdə tuturam. Bəzən yəqin ki, başqa hallar da var. Amma bu da sahibkarları narahat edir. Çünki sahibkar əldə etdiyi gəlirə görə vergi verməlidir. Ona görə burada uçot ən vacib məsələdir. Sahibkarlar şəffaf fəaliyyət göstərməlidirlər və kənd təsərrüfatına, emal sənayesinə, sənaye materiallarının istehsalına vəsait qoymalıdırlar.

Mən dəfələrlə demişəm, elə işləməliyik ki, sanki bizdə neft-qaz resursları yoxdur. Əslində, indi neftin qiyməti belə vəziyyətə gətirib çıxarıb ki, elə bil doğrudan da belədir. Sözün düzü, biz hesablayırdıq ki, post-neft dövrü Azərbaycanda 30-cu, 40-cı illərdən sonra başlayacaq. Çünki bizim bütün proqnozlarımız onu göstərir ki, hələ onilliklər bundan sonra Azərbaycanda neftin hasilatı təxminən sabit qalacaqdır. İki-üç ildən sonra reallaşacaq “Cənub” qaz dəhlizinin faydası da, əlbəttə ki, müəyyən dərəcədə 40-cı ildən sonra neftin tənəzzülünün qarşısını alacaq. Çünki biz bazara böyük qazla çıxacağıq.

Ancaq neftin qiyməti dörd dəfə aşağı düşdü və biz artıq bu gün postneft dövründə yaşayırıq. Biz qısa zaman çərçivəsində bu işləri görürük ki, insanlar bunu hiss etməsinlər. Ona görə bundan sonra islahat, şəffaflıq, məsuliyyət, qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsulların istehsalı, idxaldan asılılığın azaldılması - bütün bu amillər bizim dayanıqlı inkişafımızı təmin edəcək. Mən əminəm ki, Azərbaycan 2016-cı ildə və bundan sonrakı illərdə də uğurla inkişaf edəcəkdir. Biz müstəqillik yolu ilə, inkişaf yolu ilə gedirik. Bu yolda sizə və bütün Azərbaycan xalqına uğurlar arzulayıram”.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu,
Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

“Binəqədi” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Görülən işlərə nəzər yetirilib, qarşıda duran vəzifələr müzakirə olunub

Yanvarın 26-da 100 saylı orta məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin və Rəsulzadə bələdiyyəsinin 2015-ci ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, qəsəbə sakinləri və qonaqlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları məktəbin foyesində rayonda fəaliyyət göstərən sahibkarların istehsal etdikləri məhsulların sərgisi ilə tanış olublar.

Yığıncağı giriş nitqi ilə açan Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov hesabat məruzəsi ilə çıxış etmək üçün sözü RİH başçısının Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mübariz Məmmədova verib.

M.Məmmədov M.Ə.Rəsulzadə qəsəbəsinin ərazisinin 12 kvadratkilometr, əhalisinin isə 53000 nəfər olduğunu qeyd edərək, qəsəbədə 3270 nəfər məcburi köçkünün də məskunlaşdığını bildirib: “2015-ci il bütövlükdə respublikamızda olduğu kimi, Binəqədi rayonu və eləcə də qəsəbəmiz üçün uğurlu illərdən olub. Ötən ilin sonlarında cənab Prezident İlham Əliyev qəsəbəmizə gələrək “Baytarlıq şəhərciyi”nin açılış mərasimində iştirak edib. Ulu öndərin adını daşıyan “Heydər məscidi”, “Heydər parkı”, eləcə də akademik Zərifə xanım Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzi, “Zərifə” parkı qəsəbənin ərazisində yerləşir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Bakı şəhəri və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafına dair” Dövlət Proqramı çərçivəsində və rayon icra hakimiyyətinin Tədbirlər Planına uyğun olaraq, 2015-ci ildə qəsəbəmizdə xeyli işlər görülüb. Qəsəbənin A.Nemətulla küçəsində yerləşən 145 saylı MİS-in balansında olan binaların və nümayəndəliyin balansında olan fərdi evlərin kanalizasiya xəttində baş vermiş qəza nəticəsində yaranan problemlər aradan qaldırılıb, 350 mm diametrində, 30 p/m uzunluğunda yeni kanalizasiya xətti çəkilib. Həmidə Məmmədquluzadə küçəsində yerləşən keçmiş təmir-tikinti idarəsinin inzibati binasında məskunlaşan məcburi köçkünlərin yaşadıqları ərazidə kanalizasiya problemi həll edilib, bu məqsədlə 150 mm, 18 p/m kanalizasiya xətti çəkilib, sifon tipli quyu inşa olunub, barmaqlıqlar quraşdırılıb”.

RİH tərəfindən yaradılmış operativ nəzarət sistemini xüsusi qeyd edən məruzəçi qəsəbə ərazisində yaranmış hər hansı qəza və problemlərin gündəlik olaraq Avtomatlaşdırılmış İnformasiya Sistemində “operativ məlumat” alt modulunda yerləşdirildiyini və nəzarətə götürüldüyünü bildirib. Bu da problemlərin operativ həllini təmin edib.

Məruzədə qeyd edilib ki, Binəqədi Rayon İcra Hakimiyyətinə daxil olmuş vətəndaş müraciətlərindən 581-i M.Ə.Rəsulzadə qəsəbəsinə aid olub. Bu müraciətlərin 473-ü qəsəbədə yaşayan sakinlər tərəfindən ünvanlanıb. Daxil olmuş vətəndaş müraciətlərinə baxılmasının mövzular və növlər üzrə bölgüsü barədə məlumatlar təhlil edilərək müəyyən olunub ki, bunların 68,3%-i mənzil məsələləri, qalan müraciətlər – 10%-i əmək və əhalinin sosial müdafiəsi, 4,1%-i su-kanalizasiya, qaz, enerji və istilik problemləri ilə bağlı, 2,8%-i qaçqın və məcburi köçkünlərlə əlaqədar, 1,9%-i nəqliyyat, 5%-i ailə-məişət məsələləri, 1,2%-i vəzifəli şəxslərin hərəkət və ya hərəkətsizliyindən şikayətlə bağlıdır. Müraciətlərin 6,7%-i digər mövzuları əhatə edib.

Hesabat ilində M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsinə vətəndaşlardan yazılı ərizə formasında 67 müraciət, RİH-dən, müxtəlif idarə və təşkilatlardan isə 140 müraciət daxil olub. Vətəndaşlardan daxil olan müraciətlərdən 13-ü mənzil məsələsi (9-u tikintiyə icazə, 4-ü təmirlə bağlı), 27-si ailə və məişət və digər məsələlərdir (27 müraciət). Müraciət edən vətəndaşların problemlərinin həlli ətrafında müzakirələr aparılıb, izahatlar verilib, müvafiq instansiyalara müraciət olunaraq öz həllini tapıb. Ərazi dairəsi üzrə nümayəndə deyib ki, M.Ə.Rəsulzadə qəsəbəsində yaşayan 3 nəfər vətəndaş RİH-ə və yuxarı dövlət orqanlarına əsassız təkrar müraciət ünvanlayıb. Həmin müraciətlər yerində araşdırılıb və vətəndaşlara qanunamüvafiq izahatlar verilib.

Məruzədə o da qeyd olunub ki, 2015-ci il ərzində M.Ə.Rəsulzadə qəsəbəsi üzrə nümayəndəlikdə müxtəlif problemlərlə bağlı 228 nəfər qəbul edilib. Onlardan 26 nəfər tikintiyə icazə verilməsi, 13 nəfər qonşudan şikayət, 19 nəfər su problemi, 29 nəfər asfalt vurulması, 25 nəfər yardım olunması, 22 nəfər kanalizasiya, 47 nəfər evinin hüquqi qeydiyyata alınması, 13 nəfər işıqlandırma, 14 nəfər qaz, 20 nəfər isə müxtəlif məsələlərlə bağlı müraciət edib. Daxil olan məktubların əksəriyyəti öz müsbət həllini tapıb və RİH-dən daxil olan sərəmcam və əmrlər vaxtında icra olunub.

Məruzəçi bildirib ki, hesabat dövründə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun qəsəbə sakinləri ilə 3 səyyar qəbulu keçirilib. Həmin görüşlərdə sakinlər tərəfindən qaldırılan məsələlərə dair Rayon İcra Hakimiyyətində Tədbirlər Planı təsdiq olunub aidiyyəti qurumların icrasına verilib. Tədbirlər Planı çərçivəsində problemlərin əksər hissəsi müəyyən edilmiş müddət ərzində müsbət həllini tapıb. Bundan başqa, RİH başçısının tapşırığına uyğun olaraq, nümayəndəlik qəsəbə bələdiyyəsinin sədri ilə birlikdə tərtib olunmuş qrafikə uyğun olaraq, yerlərdə sakinlərlə görüşlər təşkil edib. Bu cür tədbirlərdə vətəndaşların problemləri ilə yerindəcə tanış olunur, mövcud çatışmazlıqlar müəyyən edilir və onların həlli istiqamətində zəruri tədbirlər həyata keçirilir. 2015-ci il ərzində nümayəndəlik tərəfindən yerlərdə 836 sakinin iştirak etdiyi 35 görüş keçirilib. Həmin tədbirlərdə sakinlər tərəfindən qaldırılmış bir sıra məsələlərin nümayəndəliyin səlahiyyətlərinə aid olan hissələri həll edilib, digərləri qərargah iclaslarında müzakirəyə çıxarılıb.

Məruzəçi vurğulayıb ki, M.Ə.Rəsulzadə qəsəbəsinin ağsaqqalları və ziyalıları ilə görüşüb mövcud ictimai-siyasi və ümumi sosial vəziyyətlə bağlı söhbətlər aparılır: “Məlum olduğu kimi, ötən ilin dekabr ayında manatın devalvasiyası nəticəsində bir sıra xidmət və alış-veriş sahələrində qiymət artımı baş verib. Təəssüf ki, bəzi işbazlar bundan sui-istifadə edərək, yeri gəldi-gəlmədi, süni qiymət artımına yol verirlər və bu da əhalinin haqlı narazılığına səbəb olur. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının keçirdiyi müşavirədə verdiyi göstərişlərə uyğun olaraq, rayonun bütün yaşayış məntəqələrində olduğu kimi, Rəsulzadə qəsəbəsində də süni qiymət artımının qarşısının alınması, eləcə də bütün yeyinti və ərzaq məhsullarının satış qiymətlərinə nəzarət edilməsi məqsədilə bələdiyyə əməkdaşları ilə birgə monitorinqlər həyata keçirilir”.





Çıxışının sonunda qəsəbə ərazisində bir sıra həllivacib problemlərin mövcud olduğunu deyən M.Məmmədov qeyd edib ki, Binəqədi şosesinin sol tərəfində yerləşən Yeni yaşayış massivində və C.Cabbarlı küçəsinin bir hissəsində kanalizasiya xəttinin qurulması, İ.Hacıyev, Aydınbəyov, C.Cabbarlı, F.Şahbazov və s. küçələrin işıqlandırılması, 43 saylı marşrutun bərpa edilməsi, Z.Qəmbərov, A.Hüseynov küçələrində yerləşən istilik məntəqələrinin yenidən qurulması, 8 Mart, C.Cabbarlı, L.Abdullayev, Ç.İldırım, Ağamalıoğlu, Hacıbababəyov küçələrində yeni asfalt örtüyünün döşənməsi və 145 saylı XT MKİS-in balansında olan binaların təmir edilməsi həllini gözləyən məsələlərdəndir.

...Sonra M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov hesabat məruzəsi ilə çıxış edib. O, ötən il bələdiyyələrin həyatında bir sıra yeniliklərin olduğunu, qanunvericilik bazasının təkmilləşdirildiyini, yerlərdə mövcud problemlərin araşdırılaraq həlli istiqamətində mühüm işlərin görüldüyünü deyib: “Qanunvericilikdə aparılan dəyişikliklərə uyğun olaraq, 2015-ci ilin yanvar ayının 1-dən fiziki şəxslərin əmlak və torpaq vergiləri yeni qaydalarla hesablanıb. Bələdiyyələr tərəfindən verginin hesablanmasında və toplanmasında mövcud çətinliklərin aradan qaldırılması üçün Vergi İnformasiya Sisteminin yaradılmasında Vergilər Nazirliyi tərəfindən Binəqədi rayonunun 5 bələdiyyəsində həyata keçirilən pilot layihələr çətinliklərin aradan qaldırılmasına əlverişli şərait yaradıb və bələdiyyə büdcəsinin formalaşmasına müsbət təsirini göstərib. Rayon rəhbərliyinin dəstəyi və tövsiyələrinə əsasən, bələdiyyələrdə həyata keçirilən pilot layihələr, pasportlaşdırma və inventarlaşdırma işi sayəsində bu gün respublika bələdiyyələri arasında Binəqədi bələdiyyələrinin adı öncül sıralarda çəkilir. Hesabat ilində M.Ə.Rəsulzadə bələdiyyəsi fəaliyyətini möhtərəm Prezident İlham Əliyevin fərman və sərəncamlarına, bələdiyyələrlə bağlı Azərbaycan qanunvericiyinə, yerli icra hakimiyyətinin tövsiyələrinə və bələdiyyənin 2015-ci il üzrə Fəaliyyət Planına uyğun həyata keçirib. Mövcud qanunvericiliyə və təsdiq edilmiş iş planına əsasən, hər ay bələdiyyəmizin ümumi iclasları keçirilib,



baxılmış məsələlərlə bağlı qərarlar qəbul edilib və icrası təmin olunub. Bələdiyyənin tərkibində fəaliyyət göstərən daimi komissiyaların və şöbələrin işlərinə dair hesabatlar, sosial maliyyə məsələləri, təmir-tikinti və abadlıq işləri, vətəndaşların müraciətlərinə baxılması həmin məsələlərdəndir. 2015-ci ildə bələdiyyəmizin 15 iclası keçirilib, baxılan məsələlərə aid 48 qərar qəbul edilib”.

Məruzəçi bildirib ki, hesabat dövründə bələdiyyə vətəndaşların qəbulu və müraciətlərinə baxılmasına xüsusi diqqət yetirib. Ötən il vətəndaşlardan 277 müraciət daxil olub: bunlardan asfalt, kanalizasiya və işıqlandırma məsələsi (8), torpaq (39), vətəndaşın razılığı olmadan yaşayış yeri ilə bağlı hər hansı hüquqi sənədin verilməməsi, torpaq və əmlakla bağlı hər hansı sənədləşmə aparılmaması barədə (2), işlə təmin olunma (48, bunlardan 35 nəfəri abadlıq işləri ilə əlaqədar bir aylıq), vergi borcu ilə bağlı bələdiyyədə qeydiyyata alınma, adına şəxsi hesab kodunun açılması və s. (31), maddi yardım göstərilməsi (110), evin və dam örtüyünün təmirinə köməklik göstərilməsi (4), məişət tullantıları ilə bağlı (4), əsgərə icazə verilməsi üçün hərbi hissəyə müvafiq məktub göndərilməsi (27), gediş-gəliş yoluna pilləkən qoyulmasına köməklik göstərilməsi (1), marşrutların hərəkət istiqamətindəki dəyişikliklərlə bağlı (1), hasarın uçması (1), müəssisəyə gedən yolun bağlanmasından sahibkarın şikayəti (1). Vətəndaş müraciətlərindən 211-i müsbət həll olunub, 60-na müvafiq izahat verilib, 6 müraciət isə aidiyyəti üzrə baxılmaq üçün göndərilib.

Ötən dövrdə bələdiyyədə 1133 nəfər qəbul edilib. Bununla yanaşı, vətəndaşların müraciətlərinin operativ cavablandırılması məqsədilə 412-28-74 nömrəli qaynar xətt də yaradılıb. Sakinlərlə yerlərdə səyyar görüşlərin keçirilməsi də daim diqqət mərkəzində saxlanılıb. Mütəmadi olaraq rayon ağsaqqalları, gənclər, ziyalılarla çoxsaylı görüşlər keçirilib. Sakinlərin bələdiyyənin fəaliyyətini mütəmadi izləyə bilməsi, eləcə də öz müraciətlərini bələdiyyəyə gəlmədən belə, ünvanlaya bilməsi üçün sosial şəbəkələrdə, o cümlədən “facebook”sosial şəbəkəsində müvafiq səhifə yaradılıb. Qeyd olunub ki, hesabat ilində bələdiyyəyə ayrı-ayrı təşkilatlardan 267 sənəd daxil olub və bələdiyyə tərəfindən 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinə, Bələdiyyələrlə İş Mərkəzinə, Bakı şəhəri üzrə Baş Maliyyə İdarəsinə, DSMF-nin İri Sığortaedənlərlə İş üzrə Departamentinə, Binəqədi Rayon Məhkəməsinə, vətəndaşlara və s. təşkilatlara 263 məktub göndərilib. Eyni zamanda, vətəndaşların müraciətləri əsasında aidiyyəti üzrə təqdim etmək üçün 258 arayış verilib: “Bələdiyyəmiz ərazidə ictimai əsaslarla fəaliyyət göstərən birliklərlə də sıx əlaqədə çalışıb. İl ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının ərazimizdə sakinlərlə 4 görüşü keçirilib, bunlardan 1-i “Açıq qapı” çərçivəsində baş tutub. Görüşlərdə səslənən məsələlərdən bir qismi operativ həll olunub, bir qismi tədbirlər planına salınıb, həlli bizdən asılı olmayan məsələlərlə bağlı aidiyyəti qurumlara müraciətlər ünvanlanıb. Bələdiyyəmiz “Sakinlərin Müraciət Xidməti - 1646” ilə də əlaqəli şəkildə işləyir. Hesabat ili ərzində bu xidmət vasitəsilə vətəndaşlardan bizə 21 müraciət ünvanlanıb. Müraciətlər, əsasən, Binəqədi şosesinin sol tərəfi, “Baksol” yaşayış massivi, Aydınbəyov, Z.Qəmbərov, İ.Hacıyev küçələrində yaşayan sakinlər tərəfindən edilib. Bələdiyyə ilə əhali arasında münasibətlərin demokratik şəkildə həllində “Məhəllə komitələri” də mühüm rol oynayır. Ümumiyyətlə, hər zaman çalışmışıq ki, həmin komitələrin sədrləri, üzvləri əhali arasında yüksək nüfuza malik fəal şəxslər olsun və onların vasitəsilə sakinlərlə sıx əlaqə yaradılsın. Hazırda ərazimizdə 40-dan çox Məhəllə komitəsi fəaliyyət göstərir”.

2015-ci ildə gəlir və xərclər haqqında məlumat verən sədr bildirib ki, bələdiyyə 31 oktyabr 2014-cü il tarixli 28 saylı qərarı ilə 2015-ci il üçün gəlir və xərcləri müəyyən edərək, yerli büdcəsini 635000 manat həcmində təsdiq edib. Büdcə iqtisadi təsnifat üzrə gəlir və xərclərin bölgüsü də aparılmaqla təsdiqlənib. Bələdiyyə büdcəsinin gəlirləri əsasən fiziki şəxslərin torpaq və əmlak vergisi, torpaq icarə haqqı və məişət tullantılarına görə xidmət haqqı yığımından formalaşıb. 2015-ci ildə bələdiyyə büdcəsinin gəlirləri, yəni vəsait yığımı ümumilikdə ötən illə müqayisədə 98310 manat artıb. Artım, əsasən, fiziki şəxslərin əmlak vergisindən və məişət tullantılarına görə xidmət haqqı yığımından olub. Bu da büdcə gəlirinin 16%-ni təşkil edir.

Ötən ilin martında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Bələdiyyə idarəçiliyinin aktual problemləri” istiqamətinin ixtisasartırma növü üzrə əlavə təhsil kursu təşkil edilib. 25 bələdiyyə sədrinin iştirak etdiyi həmin kursda Binəqədi rayonunu Binəqədi rayon bələdiyyəsinin və M.Ə.Rəsulzadə bələdiyyəsinin sədrləri təmsil edib. Hər iki bələdiyyə sədri həmin layihənin Ankarada keçirilən tədbirinə də qatılıb. Bundan başqa, ötən müddətdə Litva Respublikasının yerli özünüidarəetmə orqanlarını təmsil edən nümayəndə heyəti Binəqədi rayonunda olub, beş bələdiyyə sədrinin iştirakı ilə qonaqlarla Biləcəri bələdiyyəsində geniş görüş keçirilib.

Hesabat ilində “Bələdiyyələrin fəaliyyətinin təbliği” İctimai Birliyi tərəfindən Bakı şəhərində formalaşan 52 bələdiyyənin ictimai fəallığı ilə bağlı aparılan araşdırmaya görə, Binəqədi bələdiyyələri bütün sahələrdə seçilib. Binəqədi, M.Ə.Rəsulzadə və Binəqədi qəsəbə bələdiyyələri “2015-ci ilin ən fəal bələdiyyəsi” adına layiq görülüb. Rayonun digər 2 bələdiyyəsi isə “2015-ci ilin fəal bələdiyyəsi” sırasında yer alıb. Bütün bu göstəricilər, təbii ki, rayon rəhbərliyi tərəfindən yaradılan koordinasiyalı işin, şəffaf fəaliyyətin müsbət və uğurlu nəticəsidir.

...Hesabat yığıncağının sonunda yekun nitqi söyləyən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov qarşıda görüləcək işlər barədə ətraflı məlumat verib. RİH başçısı qeyd edib ki, son aylarda dünyada neftin qiymətinin kəskin aşağı düşməsi manatın da dəyərinə mənfi təsir göstərib: “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransında çıxış edən Prezident İlham Əliyev bir sıra mühüm məqamlara toxunub. Heç şübhəsiz ki, dövlət üçün ən vacib məsələ sabitliyin qorunması və ölkədə iş adamlarına münbit şəraitin yaradılmasıdır”. Sahibkarların işinə müdaxilənin yolverilməz olduğunu söyləyən icra hakimiyyəti başçısı yeni iş yerlərinin yaradılmasının vacibliyini də da diqqətə çatdırıb: “Bu istiqamətdə təxirəsalınmaz işlər həyata keçirilməlidir. Bələdiyyələr kənd rayonları ilə əlaqə saxlamalıdır. Sakinlərin rahatlığının təmin edilməsi üçün hər bələdiyyə öz ərazisində gündəlik yarmarkalar təşkil etməlidir. İsrafçılığa yol verilməməlidir. Başlıca məqsədimiz yeni iş yerlərinin yaradılması olmalıdır. Səlahiyyətli qurumlar əhali ilə sıx təmasda olmalı və problemlərin aradan qaldırılmasında yardımçı olmalıdırlar”. X.İsgəndərov ölkə rəhbərliyinin sərancamı ilə rayon ərazisində hündürmərtəbəli binaların tikintisinə birbaşa yerli icra hakimiyyəti tərəfindən icazə veriləcəyini də söyləyib: “Bu, ölkə başçısının bizə olan böyük etimadıdır. Bu, həmcinin, yeni iş yerlərinin açılması və rayonumuzun daha da gözəlləşdirilməsi deməkdir. Bu gün Rəsulzadə qəsəbəsində yaşı yüzü keçmiş xeyli tikili var. Məqsədimiz sakinlərin razılığı ilə istismara yararsız olan binaları söküb yerində çoxmənzilli binalar inşa etdirməkdir”.

“Təmiz Binəqədi” sosial layihəsinin uğurla yekunlaşdığını deyən RİH başçısı rayonda daha bir sosial layihənin – “Birgə Yaradaq” layihəsinin start götürdüyünü bildirib: “Bu layihələrin həyata keçirilməsində məqsəd rayonda aparılan abadlıq-quruculuq işlərini daha da sürətləndirməkdir”.

Rayonda görülən bütün işlərin mətbuatda və sosial şəbəkələrdə mütəmadi qaydada işıqlandırılmasının vacibliyini vurğulayan rayon icra hakimiyyətinin başçısı bir daha idarə və müəssisə rəhbərlərinə sakinlərlə bir yerdə olmağı və onlara hərtərəfli qayğı göstərməyi tapşırıb.

# Görüləcək işlərlə əlaqədar müşavirə keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qaldırılan məsələlərin icra edilməsi istiqamətində görüləcək işlərlə əlaqədar yanvarın 18-də Binəqədi Rayon İcra Hakimiyyəti başçısının yanında müşavirə keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, rayon icra nümayəndəlikləri, bələdiyyələr, kommunal və bir sıra strukturların rəhbərləri iştirak ediblər.

Müşavirədə şəhər, rayon icra hakimiyyətləri tərəfindən müvafiq ərazilərdə iqtisadi durumun yaxşılaşdırılması, dotasiyalardan asılılığın minimuma endirilməsi məqsədilə daxili imkanlardan istifadə etməklə sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, keçirilən tenderlərdə şəffaflığın təmin olunması, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şəraitin yaradılması, kənd təsərrüfatında islahatların genişləndirilməsi, yerli infrastruktur layihələrin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi məsələləri müzakirə olunub.

Müşavirənin sonunda rayonda süni qiymət artımının qarşısının alınması istiqamətində fəaliyyət göstərən komissiyanın məruzəsi dinlənilərək müvafiq tapşırıqlar verilib.

# Tariximizin qanla yazılan şanlı səhifəsi



Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında “20 Yanvar: tariximizin qanla yazılan şanlı səhifəsi” adlı məlumat saatı keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanasının prezident-dövlət idarəçiliyi və ölkəşünaslığa dair ədəbiyyatın biblioqrafiyası şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa, Binəqədi RİH başçısı Aparatının əməkdaşları, rayon icra nümayəndələri, bələdiyyələr və YAP Binəqədi rayon təşkilatının üzvləri iştirak ediblər.

İlqar Süleymanov tədbirin proqramı haqqında geniş məlumat verdikdən sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında təcrübə keçən “ASAN könüllü” Kənan Qubadzadə Prezident İlham Əliyevin yanvar ayı ərzində həyata keçirdiyi görüşlər, qəbullar, imzaladığı sərəncam və fərmanlar haqqında məlumat verib.

Daha sonra “20 Yanvar: tariximizin qanla yazılan şanlı səhifəsi” adlı mövzu ətrafında Nazim Mustafa məruzə ilə çıxış edib. Qeyd olunub ki, 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə baş verən hadisə ölkəmizin ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzə etiraz edən, haqq-ədalətin bərqərar olunmasını istəyən, azadlıq, müstəqillik uğrunda şərəfli mücadilə aparan xalqımızın inam və iradəsini qırmaq, milli mənliyini məhv etmək məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən qanlı hadisələrdən biridir. Eyni zamanda, natiq bu hadisənin xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulminasiya nöqtəsi olmaqla, çağdaş tariximizə qürur və şərəf mübarizəsi kimi daxil olduğunu diqqətə çatdırıb. Məruzədən sonra məlumat saatı diskusiyya şəklində davam etdirilib.

# Şəhidlər və şəhid ailələri unudulmur



Binəqədi rayonunda 20 Yanvar şəhidlərinin ailə üzvləri ilə görüş keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, “20 Yanvar” Cəmiyyətinin rayon şöbəsinin sədri Ağarza Xankişiyev, 20 Yanvar hadisələri zamanı şəhid olmuş rayon sakinlərinin yaxınları iştirak ediblər.

Görüşdə çıxış edən İlqar Süleymanov ermənilərin fitvası ilə törədilmiş bu cinayətin Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədiyini, qanı bahasına da olsa xalqımızın öz ülvi istəyinə - azadlıq və müstəqilliyinə qovuşduğunu və bu tarixi nailiyyəti heç vaxt əlindən verməyəcəyini bildirib.

Ağarza Xankişiyev və 20 Yanvar şəhidi Rəşid İsmayılovun həyat yoldaşı Elmira İsmayılova 20 Yanvar əlilləri və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və rayon rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# 20 Yanvar şəhidlərinin xatirəsi anılıb

Yanvarın 19-da Biləcəri qəsəbəsində ucaldılmış “Güllə Yağışı” abidəsinin önündə 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.



Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, RİH başçısının müavini Vüsar İsmayılov, Aparatın şöbə müdirləri, rayonun hüquq-mühafizə orqanları və icra strukturlarının rəhbərləri, 20 Yanvar əlilləri, şəhid ailələrinin üzvləri, fəal gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

“Güllə Yağışı” abidəsinin önünə gül dəstələrinin düzülməsi ilə başlayan anım mərasimində faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Azərbaycan xalqının qəhrəmanlıq salnaməsində parlaq səhifə təşkil edən, milli iradə və mənlik şüurunun ali təcəssümünə çevrilərək qürurla xatırlanan 20 yanvar hadisələri barədə ətraflı məlumat verilib. Bildirilib ki, 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzə etiraz edən, haqq-ədalətin bərqərar olunmasını istəyən, azadlıq, müstəqillik uğrunda şərəfli mücadilə aparan xalqımızın inam və iradəsini qırmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən qanlı hadisə baş verib.




Tədbirdə çıxış edən İlqar Süleymanov bu qanlı hadisəni Azərbaycan tarixinə yazılmış şanlı səhifə kimi səciyyələndirərək SSRİ rəhbərliyinin dinc, əliyalın insanlara qarşı qırğın törətməsini zorakılıq üzərində qurulmuş bir imperiyanın xalqımızın əzmkarlığı və iradəsi qarşısında mənəvi cəhətdən gücsüz olduğunu vurğulayıb: “Qürur ünvanımıza çevrilmiş 20 Yanvar hadisələrindən artıq 26 il keçir. Hadisənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif fikirlərə, rəylərə rast gəlinsə də, bütün mövqelər bir nöqtədə kəsişir: həmin tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Keçmiş sovet imperyasının 1990-cı il yanvarın 20-də xalqımıza qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi daim bəşər tarixində qara ləkə olaraq qalacaq. Bu qanlı olay təkcə bizə qarşı deyil, eyni zamanda Tanrının yaratdığı ən ali varlıq olan insanlığa qarşı törədilmiş dəhşətli cinayət aktıdır. Qırmızı ordunun ölkəmizə təcavüzü nəticəsində neçə-neçə insan qətlə yetirilib, çoxlu sayda adam yaralanıb. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Bu qanlı olaydan 26 il ötsə də, hər il 20 Yanvar faciəsi xalqımız tərəfindən böyük ürək ağrısı ilə, həmçinin qürurla anılır. Bu gün Azərbaycan gənclərinin qarşısında duran vəzifələr bəllidir. Şəhidlərin müqəddəs qanının yerdə qalmaması üçün hər bir azərbaycanlı gənc öz üzərində daim çalışmalı, Vətənə layiqli övlad kimi bütün qüvvə və bacarığını əsirgəməməlidir. Yalnız bu halda əziz şəhidlərimizin ölməz ruhları qarşısındakı mənəvi borcumuzu yerinə yetirmiş olarıq».



“20 Yanvar” cəmiyyəti Binəqədi rayon şöbəsinin sədri Ağarza Xankişiyev 1990-cı ilin yanvarında sovet imperiyasının qoşun birləşmələrinin Azərbaycanda müstəqillik və azadlıq uğrunda mübarizəyə qalmış dinc əhaliyə, soydaşlarımıza qarşı törətdiyi cinayətlərdən danışaraq, bu faciənin xalqımızın milli azadlıq ruhuna qarşı təcavüz, eyni zamanda xalqımızın tarixində qəhrəmanlıq səhifəsi olduğunu deyib: “Həmin gecə Azərbaycan xalqı öz yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, müstəqillik və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya nümayiş etdirib”.

Mərasimdə çıxış edən 20 Yanvar şəhidi Rəşid İsmayılovun həyat yoldaşı Elmira İsmayılova bildirib ki, bu faciəni törətməklə totalitar sovet rejimi özünün cinayıətkar mahiyyətini bir daha bütün dünyaya nümayiş etdirdi: “Biz 20 Yanvarı milli matəm, hüzn kimi qeyd etməklə bərabər, o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanlarımızın vəhşicəsinə qətlə yetirilməsi xalqımızın müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecə xalqımız öz fədakarlığı və iradəsi sayəsində müqəddəs arzusuna çatdı: milli azadlığına qovuşdu”. Hadisələrə ilk dəfə siyasi-hüquqi qiymətin ümummilli liderimiz Heydər Əliyev tərəfindən verilməsini tədbir iştirakçılarının nəzərinə çatdıran Elmira xanım şəhid ailələrinə və əlillərə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Sonra “İrəvan” Dövlət Azərbaycan Dram Teatrının aktyorlarının ifasında 20 Yanvar faciəsi ilə bağlı kompozisiya nümayiş etdirilib.



# Təki Vətən sağ olsun!

## Şəhid əsgər Rəşad Cəfərzadənin qırx mərasimi keçirilib




Azərbaycan qəhrəmanlar diyarı, cəsurlar məskənidir. Xalqımızın igid oğulları, mərd qızları heç vaxt Vətəni darda qoymayıb, lazım gələndə doğma od-ocaq, müqəddəs Vətən torpağı uğrunda canlarından belə keçiblər.

Yurdumuzun azadlığı, ərazimizin bütövlüyü uğrunda mərdliklə vuruşan, alın yazısını da öz qanıyla torpağa-daşa həkk edən igidlərimizdən biri də ötən ilin dekabr ayının 16-da cəbhənin Tərtər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş Binəqədi rayon sakini Rəşad Əlyar oğlu Cəfərzadə idi...

Yanvarın 24-də Binəqədi rayonunda şəhid Rəşad Cəfərzadənin qırx mərasimi keçirilib. Mərasimdə Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyi, millət vəkili Kamaləddin Qafarov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon İdarəsinin rəisi Mehman Qurbanov, ziyalılar, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhidin döyüş dostları, təhsil aldığı məktəbin kollektivi, eləcə də mərhumun əzizləri iştirak ediblər.



Mərasim iştirakçıları əvvəlcə şəhidin uyuduğu qəbiristanlığa gedərək onun xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Ruhuna dualar oxunub, yaxınlarına başsağlığı verilib. Şəhidin qohumları Mahir Pənahov və Şahin Ağayev göstərilən diqqətə görə Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevə və Binəqədi rayon rəhbərliyinə, həmçinin xidmət göstərdiyi hərbi hissənin kollektivinə dərin minnətdarlıqlarını bildiriblər.



Vurğulayıblar ki, dövlət Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsini həmişə yüksək tutur, əzizlərinə, yaxınlarına dəstək nümayiş etdirir. Bugünkü mərasimdə də dövlət nümayəndələrinin iştirakı bunu deməyə əsas verir.

Dayısının sözlərinə görə, Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyi bu müddət ərzində daim şəhidin ailəsinə hərtərəfli dəstək nümayiş etdirib: " Rayon rəhbərliyi ilk gündən bizim ailəyə maddi və mənəvi dayaq olub. Sağ olsunlar, yas mərasiminin təşkilində və qəbrin üstünün götürülməsində rayon icra hakimiyyətinin nümayəndələri yaxından iştirak ediblər. Mən ailəmizə göstərilən bu dəstəyə görə hər kəsə dərin təşəkkürümü bildirirəm. Demək olar ki, ötən müddət ərzində rayon rəhbərliyi hər gün bizimlə maraqlanıb və üzləşdiyimiz çətinliklərin aradan qaldırılmasına yardımçı olub".

Şahin Ağayev də bizimlə söhbətində yas mərasiminin təşkilini icra hakimiyyətinin öz üzərinə götürdüyünü deyib: "Bu, dövlətimizin şəhid ailələrinə göstərdiyi qayğının nəticəsidir. Bütün bu işlərdə yaxından iştirak etdiklərinə görə, rayon rəhbərliyinə və ictimaiyyətinə minnətdarlığımızı bildirirəm".

Mərasimdə çıxış edənlər ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən hər bir şəhidin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağını bildiriblər.

# Sahibkarlarla görüş



Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yerli sahibkarların Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymalı olduqlarını deyib. Xüsusilə dövlət tərəfindən verilən güzəştli kreditlərin sahibkarlara verildikdə onların qarşısında sərmayənin məhz hansı sahəyə yatırmalı olduqlarının şərt kimi qoyulduğunu deyən dövlət başçısı ölkəmizdə artıq daha geniş biznes təbəqəsinin və iş adamlarının mövcudluğunu bildirib. Onların da öz sərmayələrini məhz ölkə iqtisadiyyatına, ilk növbədə iqtisadiyyatın real sektoruna - istehsal sahələrinin yaradılmasına, kənd təsərrüfatına, sənayenin inkişafına və xidmət sektoruna yatırmalı olduqları, dövlət qurumlarının isə - həm mərkəzi dövlət orqanlarının, həm yerlərdəki icra orqanlarının sahibkarlara lazımi şərait yaratmalı olduqları vurğulanıb.

Ölkə Prezidentinin tapşırıqlarının icrası ilə əlaqədar olaraq, yanvarın 18-də Binəqədi rayonunda fəaliyyət göstərən müxtəlif təyinatlı sahibkarlarla görüş keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, RİH başçısının müavini Vüsar İsmayılov və sahibkarlar iştirak ediblər.

Tədbirdə çıxış edən İ.Süleymanov qeyd edib ki, Azərbaycan Respublikasında milli iqtisadiyyatı təmin edən mühüm faktorlardan biri olan sahibkarlığın inkişafı məqsədilə son illər xüsusi dövlət proqramları qəbul edilib və zəruri tədbirlər həyata keçirilib. Bu da sahibkarlığın inkişafının dövlətimizin diqqət mərkəzində olduğunun göstəricisidir. Ümumilikdə, sahibkarlığın inkişafı özəl sektorun tərəqqisinə əhəmiyyətli töhfələr verir və bu amil öz növbəsində ölkə iqtisadiyyatının dinamik inkişafının davam etməsində mühüm rol oynayır. Dayanıqlı iqtisadi sistemin formalaşmasında və dinamik inkişaf əldə etməsində altqurum institutu kimi mühüm rola malik olan sahibkarlıq fəaliyyəti təkcə iqtisadi tərəqqiyə təkan verən faktor kimi çıxış etmir, eyni zamanda əhalinin sosial rifah halının yaxşılaşmasında, işsizliyin aradan qaldırılmasında əhəmiyyətli vasitə rolunu oynayır.

Tədbirdə iştirak edən sahibkarlar rayonun potensialına uyğun olaraq, müxtəlif investisiya layihələrinin həyata keçirilməsi məqsədilə təkliflər veriblər və onları narahat edən problemlər ətrafında müzakirələr aparıblar.

# Vətənpərvərliyə həsr olunan tamaşa



Binəqədi Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə təsdiq edilmiş "20 Yanvar faciəsinin 26-cı ildönümünün qeyd edilməsi ilə bağlı tədbirlər planı"na müvafiq olaraq, Xəzər Universitetinin nəzdində yaradılmış Dünya məktəbinin dərnək üzvlərinin ifasında "Savaş içində sülh" tamaşası nümayiş etdirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Dünya məktəbinin təsisçisi Nailə İsayeva, rayon orta ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivi iştirak ediblər.

Əvvəlcə vətənpərvərlik mövzusunda və ölkəmizə qarşı həyata keçirilən düşmənçilik siyasəti, xalqımızın başına gətirilən faciələrdən bəhs edən filmlər nümayiş etdirilib. Sonra "Savaş içində sülh" tamaşası tədbir iştirakçılarına təqdim olunub. Əsas süjet xətti Azərbaycan tarixinə qara hərflərlə yazılmış 20 Yanvar faciəsi olan tamaşa izləyicilərdə dərin təəssürat yaradıb.

Tədbirin sonunda çıxış edən Aygün Əliyeva tamaşanın hazırlanmasında zəhməti olan hər kəsə təşəkkürünü bildirib və bu cür tədbirlərin gənc nəslin qəhrəman Vətən övladlarının yaxından tanımasında, onların vətənpərvərlik tərbiyəsində əhəmiyyətli rol oynadığını vurğulayıb.

# "20 Yanvar – müstəqilliyə gedən yol" mövzusunda elmi-praktik konfrans

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı"na və bununla əlaqədar təhsil naziri Mikayıl Cabbarovun müvafiq əmrinə əsasən, yanvarın 19-da Binəqədi rayonunda yerləşən Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda elmi-praktik konfrans keçirilib. Konfransda Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun rektoru, Binəqədi Rayon Ziyalılar Cəmiyyətinin sədri professor Asəf Zamanov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini, Binəqədi Rayon Ziyalılar Cəmiyyətinin sədr müavini, professor Hüseyn Əsgərov, Binəqədi Rayon Ziyalılar Cəmiyyəti İdarə heyətinin üzvü, şair-publisist Taleh Həmid, professor-müəllim heyətinin, gənclər təşkilatlarının üzvləri, rayon ictimaiyyəti və KİV nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə vətənimizin azadlığı və bütövlüyü uğurunda qəhrəmancasına həlak olmuş oğul və qızlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra giriş sözü ilə çıxış edən Asəf Zamanov bildirib ki, 20 Yanvar XX əsrin sonlarında xalqımıza qarşı düşünülmüş mənfur siyasətin növbəti təzahürü idi: "Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrinin və daxili qoşunların Bakıya yeridilməsi tarixdə görünməmiş vəhşiliklə müşayiət olunub. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Bundan əvvəl Qazaxıstanda və Gürcüstanda nümayişçiləri atəşə tutaraq Alma-Atada 9, Tbilisidə 19 nəfəri qətlə yetirən sovet hərb maşını bu qətliamı Bakıda daha dəhşətli faciəyə səbəb olan xüsusi amansızlıqla həyata keçirdi. Həmin vaxt Azərbaycan mənfur ermənilərin də təcavüzünə məruz qalıb. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmədi, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilib. Beləliklə, 1990-cı il yanvarın 19-da Mixail Qarbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalayıb. Lakin SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin "Alfa" qrupu yanvarın 19-da saat 19:27 radələrində Azərbaycan Televiziyasının enerji blokunu partladıb, respublikada televiziya verilişləri dayandırılıb. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil olub və dinc əhaliyə divan tutmağa başlayıb. Qorbaçovun fərmanı qüvvəyə minənədək – yanvarın 20-də saat 00-dək artıq 9 nəfər qətlə yetirilib. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırılıb. Həmin vaxt qətlə yetirilənlərin sayı 100-ə çatıb. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar utanmadan belə bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaq. Əli yüzlərlə insanın qanına batmış, sonralar "Nobel" sülh mükafatı alan Mixail Qorbaçov başda olmaqla, sovet imperiyasının rəzil siması məhz bu idi... Bir neçə gün ərzində 137 nəfər qətlə yetirilib, 700 nəfərədək insan yaralanıb, 800-dən çoxu həbs edilib və ya itkin düşüb. Həmin vaxt digər soydaşlarımızla yanaşı, şagird də, tələbə də, aspirant da, alim də həlak olmuşdur. Professorlar – İbrahim İbrahimov, Svetlana Məmmədova və İsmayıl Mursaqulov çalışdıqları Sumqayıt Polimer Materialları İnstitutuna işə gələrkən imperiya ordusu tərəfindən vəhşicəsinə qətlə yetirilmişlər".



A.Zamanov vurğulayıb ki, Qorbaçovun qısqanclığı və ermənilərin fitvası ilə 1987-ci ildə Sovet İttifaqının rəhbərliyindən uzaqlaşdırılan, rəsmi Moskvanın təqib və təzyiqlərinə məruz qalan ümummilli lider Heydər Əliyev Bakıda törədilən bu qanlı faciənin ertəsi günü – yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib və kəskin bəyanatla çıxış edərək, sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı təcavüzünü qəti şəkildə pisləyib: "20 Yanvar faciəsi iyirminci yüzillikdə xalqımıza qarşı yeridilən düşünülmüş mənfur siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımın törədilməsi, sovet hakimiyyəti illərində əzəli və əbədi torpaqlarımızın tədricən ilhaq olunması, nəticədə ərazimizin 84 min kv.km-dək azalması, sovet rəhbərlərinin havadarlığı ilə başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, soydaşlarımızın Ermənistandan – öz ata-baba torpaqlarından qovulması bu iyrənc siyasətin növbəti mərhələləridir. Lakin 1990-cı il yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan oğul və qızlarımız öz qanları ilə Azərbaycan tarixinə parlaq səhifə yazdılar, milli azadlıq və müstəqilliyimiz üçün yol açdılar, sovet imperiyasının dağılması üçün katalizator rolu oynadılar".

Rektor çıxışında onu da bildirib ki, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda çəkişmələrə qarışmış yerli rəhbərlər 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra – 1994-cü ildə Qanlı Yanvar hadisələrinə siyas-hüquqi qiymət verilib, faciənin günahkarlarının adları açıqlanıb.

Sonra şair-publisist Taleh Həmid "Poeziyamızın 20 Yanvar nidası", professor Hüseyn Əsgərov "Azərbaycan təhsilində 20 Yanvar səhifəsi" mövzularında məruzə ilə çıxış edib. Konfransın sonunda institutun kafedra müdirləri - Müslüm Nəzərov, Yusif Alıyev və başqaları çıxış edərək vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçən oğul və qızlarımızın igidliklərindən nümunələr gətiriblər, 20 Yanvar hadisələrinin bugünümüz və gələcəyimiz üçün böyük önəm kəsb etdiyini, xalqımızın yaddaşında əbədi yaşayacağını vurğulayıblar.

MULTİKULTURALİZM İLİ

# Heydər Əliyev bütün Azərbaycanı, Heydər məscidi isə dini məzhəbləri birləşdirdi

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən elan olunmuş “Multikulturalizm ili” çərçivəsində Bakıda, Binəqədi rayonu 9-cu mikrorayon ərazisində yerləşən Heydər məscidində cümə namazı qılınıb. “Vəhdət namazı” adlandırılan bu mərasimdə məzhəbindən asılı olmayaraq, bütün müsəlmanlar bir araya gələrək eyni vaxtda, eyni yerdə namaz qılıb, dualar ediblər.

Bu tədbir bir daha Azərbaycanın tolerantlıq mərkəzi kimi bütün dünyada nüfuzunun daha da artmasına xidmət edir. Min ildən artıqdır ki, İslam dünyasının iki böyük məzhəbinin - şiə və sünni məzhəblərinin nümayəndələri ibadətlərini fərqli şəkildə və fərqli məkanda edirlər. Tarixdə bir neçə dəfə onların vəhdətinə, birliyinə təşəbbüslər göstərilsə də, bu, davamlı xarakter almayıb.

Müsəlmanların müqəddəs kitabı - Qurani-Kərimdə Allah-Təala bütün müsəlmanları sülhə, birliyə və vəhdətə çağırır. Bu isə dini zəmində ixtilafların baş verdiyi müasir dövrdə xüsusilə aktualdır. Belə bir zamanda Azərbaycan bütün dünyaya nümunə ola biləcək növbəti addım atdı.

Dünyada sünni-şiə məsələsinin artdığı, daha doğrusu, bəzi üzdəniraq qüvvələr tərəfindən məqsədli olaraq süni şəkildə qabardıldığı bir zamanda Heydər məscidində şiələrlə sünnilər müsəlmanların müqəddəs günlərdən olan cümə günündə də növbəti dəfə vəhdət namazı qılmaq üçün bir araya gəldilər. Bu təşəbbüs ulu öndərin vəfatının ildönümündən başlayıb və artıq böyük dəstək qazanaraq davamlı hal alıb. Həm şiə, həm də sünni məzhəbinin nümayəndələrinin vahid məkanda, bir sırada duraraq ibadət etməsi dövlətimiz tərəfindən həyata keçirilən tolerantlıq və multikulturalizm siyasətinin nəticəsidir.

Minarədən müsəlmanlara canlı səslənən, onları ibadətə və eyni zamanda vəhdətə çağıran azan bir həftə şiə, digər həftə isə sünni məzhəbinə məxsus müsəlmanlar tərəfindən icra olunur.

Məsciddə şiələrlə sünnilər qardaş kimi bir yerdə, yan-yana namaz qılırlar. Bu, əslində, sadə görünə bilər, amma mahiyyətinə vardıqda çox əhəmiyyətli və tarixi bir səhnə təsiri bağışlayır. Bu məsciddə hər gün olduğu kimi, cümə namazları növbəli şəkildə - bir həftə əhli-sünnə imamının, növbəti həftə isə əhli-şiə imamının rəhbərliyi ilə keçirilir. Əminliklə demək olar ki, Heydər məscidindəki bu təcrübə nəinki Azərbaycan, eləcə də bütün dünya üçün olduqca gözəl ənənənin əsasını qoyub.

Heydər məscidinin dini rəhbəri Hacı Sabir bu hadisənin bütün dünya müsəlmanları üçün örnək olduğunu deyir: “Ən fərəhli hal odur ki, biz Azərbaycan təcrübəsində və ümumiyyətlə, dünya təcrübəsində nümayiş etdirdik ki, vəhdət namazı ən sevimli namazdır, Uca Tanrı qarşısında ən qəbula yetən namazlardan biridir”.



Dini dözümsüzlüyün, irqi ayrı-seçkiliyin və islamofobiyanın bütün dünyada geniş yayıldığı bir dövrdə Heydər məscidində vəhdət namazının qılınması dünyaya bir sülh mesajıdır. Bu mesaj tolerantlıq və multikulturalizm mərkəzi olan Azərbaycandan verildi. Məğzi isə odur ki, məzhəbindən asılı olmayaraq, müsəlmanlar qardaş-bacı kimi bir yerdə, bir məsciddə namaz qılırlar. Çünki bütün müsəlmanların bir Allahı, bir Quranı və bir Peyğəmbəri var.

Məscidin imamı Hafiz Abbasov: “Mən burada əhli-sünnə üzrə aparılan namazlara rəhbərlik edirəm. Mənim yanımda dayanan məscidin axundu isə əhli-şiə üzrə aparılan namazları idarə edir. Biz burada hər iki məzhəbin nümayəndəsi olaraq, bu gün qılınan cümə namazında iştirak etdik. Mən bir sıra müsəlman ölkələrində də olmuşam, orada əhli-sünnə üzrə qılınan namazların icra olunduğu məsciddə əhli-şiənin namaz qılması görünməmiş haldır. Eyni zamanda, əhli-şiə məscidində əhli-sünnənin namaz qılması da görünməyib. Amma Azərbaycanın əksər məscidləri məzhəbindən asılı olmayaraq, hər kəsin üzünə açıqdır, hər kəs namazlarını burada rahat şəkildə, heç bir təzyiqə məruz qalmadan icra edə bilir”.

Məscidin axundu Rüfət Qarayev: “Mən cümə günü, eyni zamanda, vəhdət günü münasibətilə xalqımızı təbrik edirəm. Burada, əslində, cümə namazının birlikdə qılınması xalqımızın öz istəyidir, hər iki məzhəb nümayəndələrinin təklifidir. Allaha həmd olsun ki, biz buna nail olduq. Bu gün hər iki məzhəb nümayəndələri namazlarını birgə qılırlar”.

Heydər məscidində şəhidlərimizin ruhuna da dualar oxunub, israf və qənaət haqqında xütbə deyilib. Vəhdət namazı ölkəmizdə İslam dininə olan sevgi və hörmətin təkcə sözdə deyil, həm də əməldə təsdiqidir. Azərbaycanın bu təşəbbüsünün bütün İslam aləmində böyük rəğbətlə qarşılanacağı heç kəsdə şübhə doğurmur. Qurani-Kərimdə də deyildiyi kimi, “həqiqətən, bütün müsəlmanlar bir-birinə qardaşdırlar”. Qardaş olan müsəlmanların vəhdət namazının məhz ulu öndərin adını daşıyan Heydər məscidində qılınması da xüsusi məna daşıyır.

Məscidə namaz qılmağa gələn Ruslan Qurbanov: “Mən burada sünnə namazı qılmağıma baxmayaraq, ətrafımda şiə namazı qılanlara da böyük hörmətlə yanaşıram”.

Rauf İsgəndərov: “Cümə günü bizim üçün sevincli gündür. Həm də ona görə sevincli gündür ki, sünni və şiə qardaşlarımız bir yerdə namaz qılırlar”.

Ağəddin Kərimov: “Cümə namazı hər bir müsəlman üçün fərzdir. Ulu Tanrı buyurub ki, bu gün məscidlərə yığışın, namaz qılın, bir-birinizlə hal-əhval tutun, bir-birinizə kömək edin. Allah bu məscidi tikdirənlərin də köməyi olsun. Çox gözəl məsciddir. Rahat şəkildə namazımızı qılırıq”.

Xatırladaq ki, məscid kompleksi Prezident İlham Əliyevin tapşırığı ilə inşa olunub və 2014-cü ildə istifadəyə verilib. Gözəlliyi ilə diqqəti cəlb edən məscid müsəlmanlarla yanaşı, digər dinlərin nümayəndələrinin də üzünə açıqdır. Heydər məscidinin dini rəhbəri Hacı Sabir: “Heydər məscidi Qafqazda ən böyük məsciddir. Minarələrinin hündürlüyü 95 metrdir. Demək olar ki, dünya ölkələrinin çoxunda bu hündürlükdə minarələr yoxdur. Gördüyünüz kimi, burada dörd minarə var və hamısında lift işləyir. Bundan əlavə, ibadət salonları da böyükdür. Burada təxminən 5000-7000 nəfər eyni vaxtda ibadət edə bilər. Onu da qeyd edim ki, Heydər məscidi bir məsələdə də yeganədir. Burada digər məscidlərdə olan kimi nəzir qutuları yoxdur. Dünyanın əksər məscidlərində nəzir qutuları qoyulub. Lakin belə razılığa gəldik ki, bu məsciddə nəzir qutusu olmasın. İşçilərimizin maaşları Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən ödənilir. Məscidin Bakı Şəhər İcra Hakimiyyətinin balansında olması işlərimizin xeyli irəli getməsində bizə yardımçı olur”.

Əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycanda dövlət tərəfindən həm də rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri aparılıb.

Heydər məscidində vəhdət namazının artıq ənənə halını alması isə onu göstərir ki, “Multikulturalizm ili”ndə də ölkəmizdə bu sahədə uğurlu tədbirlər həyata keçiriləcək. Azərbaycanın multikulturalizm məktəbinin ənənələri və ölkəmizin tolerantlıq mərkəzi kimi əhəmiyyəti daha da artacaq. Ölkəmizdə bu iln “Multikulturalizm ili” elan edilməsi bir çox obyektiv amillərdən qaynaqlanır. Birincisi, Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb, bununla bağlı möhkəm tarixi baza formalaşdırıb.

## Binəqədidə Rumıniya mədəniyyəti günü qeyd olunub

Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və Rumıniyanın ölkəmizdəki səfirliyinin dəstəyi ilə Rumıniya Mədəniyyəti Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə Binəqədi RİH başçısının müavini Vüsar İsmayılov, Rumıniyanın Azərbaycandakı səfiri Daniel Kristian Çobanu, icra hakimiyyətinin və səfirliyin əməkdaşları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları tanınmış rumın xalq şairi, bəstəkar Corc Eneskunun Bakının Binəqədi rayonunda yerləşən abidəsi qarşısına əklil qoyub, gül-çiçək dəstələri düzübləр.




Səfir Daniel Kristian Çobanu çıxışında tədbir iştirakçılarına minnətdarlığını bildirərək Azərbaycanda Rumıniya Mədəniyyəti Gününün keçirilməsinin iki dövlət arasında humanitar əlaqələrin inkişafı üçün böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Rumıniyanın Azərbaycanı daim dəstəklədiyini deyən diplomat ölkələrimiz arasında müxtəlif sahələrdə sıx əməkdaşlıq edildiyini də diqqətə çatdıraraq qeyd edib ki, xalqlarımız uzun illərdir dostluq edir, bir-birinin mədəniyyətinə və ənənələrinə hörmətlə yanaşırlar. Səfir tədbirin təşkilatçılığına görə Binəqədi Rayon İcra Hakimiyyətinə təşəkkürünü bildirib.

Sonda abidənin önündə xatirə şəkli çəkdirilib.

## Şəhidin xatirəsi yad olunub



Vətən, torpaq uğrunda canından keçənlərin xatirəsi qədirbilən xalqımızın yaddaşından heç vaxt silinmir, aylar, illər keçsə də onların göstərdikləri igidliklər dillərdə gəzir, nəsillərdən-nəsillərə ötürülür. Beləliklə, xalq öz igid, qəhrəman övladlarına qəlbində əbədi heykəl ucaldır. Ən yeni tariximizin qanlı, eyni zamanda şanlı səhifəsi olan 20 Yanvar hadisələri zamanı şəhid olanlar da hər zaman qəlbimizdə yaşayırlar. Hər il olduğu kimi, bu il də faciə ilə bağlı Binəqədi rayonunda silsilə tədbirlər həyata keçirilib, şəhid olmuş rayon sakinlərinin doğmaları ziyarət edilib.

20 Yanvar Cəmiyyətinin Binəqədi rayon şöbəsinin sədri Ağarza Xankişiyev, rayonda fəaliyyət göstərən 3 saylı orta məktəbin müəllim və şagird kollektivi həmin məktəbin məzunu, 20 Yanvar hadisələrində şəhidi olmuş Rüstəm Əliyevin evində olublar, ailə üzvləri ilə birlikdə onun əziz xatirəsini yad ediblər. Şəhidin ailəsi onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına və rayon rəhbərliyinə təşəkkürünü bildirib.

## “Fövqəladə hallarda özünü necə aparmalı” mövzusunda tədbir

Binəqədi Rayon İcra Hakimiyyəti, Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzi, Binəqədi qəsəbə bələdiyyəsi və 179 saylı orta məktəbin təşkilatçılığı ilə “Fövqəladə hallarda özünü necə aparmalı” mövzusunda tədbir keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Bakı Regional Mərkəzin Operativ məlumat şöbəsinin rəisi - idarə rəisinin müavini, polkovnik-leytenant Vaqif Teymurov, Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Elxan Əliyev, Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva və 179 saylı məktəbin kollektivi iştirak ediblər.

Tədbir nəzəri və praktik olmaqla iki hissədən ibarət olub.




Mərkəzi Mədəniyyət evində keçirilən nəzəri hissə zamanı Bakı Regional Mərkəzin əməkdaşları “Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri və qurumları”, “Fövqəladə halların təsnifatı”, “Kollektiv mühafizə qurğuları”, “Təbii fövqəladə hallar zamanı nə etməli?”, “Yanğın-partlayış və nəqliyyat qəzası zamanı nə etməli?”, “Radiasiya, kimya və bioloji xarakterli fövqəladə hallar zamanı nə etməli?”, “Terror xarakterli fövqəladə hallar zamanı nə etməli?”, Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşı isə “Qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydaları” mövzularında çıxış edərək tədbir iştirakçılarına fövqəladə hallar, onların təsnifatı, xüsusiyyətləri, fövqəladə hal baş verdikdə insanların davranışı, fərdi mühafizə vasitələrindən istifadə qaydaları, məişət qaz cihazlarından istifadə edərkən təhlükəsizliyin təmin edilməsi, sel və daşqınlar, yol qəzaları, terror, partlayışlar və s. ilə bağlı ətraflı məlumat veriblər.

Çıxışlardan sonra məktəbin həyətində tədbirin praktik hissəsi keçirilib.

## “20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir”

Yanvarın 19-da Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünə həsr olunmuş “20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir” adlı anım tədbiri keçirilib.



Tədbirdə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov faciənin tarixi, bu hadisələrin heç zaman unudulmamasının vacibliyi, Azərbaycanın öz müstəqilliyini şəhidlərin qanı bahasına əldə etdiyini vurğulayıb, hadisə qurbanlarının xatirələrinin daim yaddaşlarımızda qalacağını bildirib.

3 №li tam orta məktəbin tarix müəllimi Vətən Hüseynov, şəhid anası Elmira Məmmədova, gənclərdən – Elnurə Cəfərzadə, Aytac Abbasbəyli, Türkan Sadıqova 20 Yanvar faciəsi haqqında fikir və düşüncələrini bölüşüblər.

Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova isə Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin “20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” 15 dekabr 2015-ci il tarixli və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 8 yanvar 2016-cı il tarixli sərəncamlarının və idarənin Tədbirlər Planının icrası məqsədilə rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında inşa yazı, rəsm və bədii-qiraət müsabiqələrinin keçirildiyini nəzərə çatdırıb. Anım tədbiri “20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir” mövzusunda keçirilmiş inşa yazı, rəsm və bədii qiraət müsabiqələrinin qaliblərinin mükafatlandırılması mərasimi ilə başa çatıb.

# Binəqədi bələdiyyəsi və SİƏD hesabat verdi

Yanvarın 19-da 8-ci mikrorayonun ərazisində yerləşən 83 saylı məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 saylı sahə inzibati ərazi dairəsi (SİƏD) üzrə nümayəndəliyin və Binəqədi bələdiyyəsinin 2015-ci ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşov, qəsəbə sakinləri və qonaqlar iştirak ediblər.



Yığıncağı giriş nitqi ilə açan Vüsar İsmayılov qəsəbədə görülən və görülməsi planlaşdırılan işlərdən danışaraq sakinləri müzakirələrdə fəal iştirak etməyə dəvət edib. Sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli SİƏD üzrə nümayəndəsi Dilbər Şükürova hesabat məruzəsi ilə çıxış edib. Nümayəndəliyin Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən 2013-cü ildən fəaliyyət göstərdiyini qeyd edən D.Şükürova təmsil etdiyi nümayəndəliyin ərazisinin 7, 8-ci mikrorayonları və Dərnəgül yaşayış massivini əhatə etdiyini bildirib. Ərazisi 3,2 kvadratkilometr, əhalisi isə 44 min 950 nəfər olan nümayəndəliyin inzibati ərazisində 4010 ailə, 14 min 560 nəfər məcburi köçkün məskunlaşıb.

Məruzədə qeyd edilib ki, nümayəndəliyin inzibati ərazisində yerli özünüidarəetmə orqanı olan 1 bələdiyyə fəaliyyət göstərir. Ərazidə Bakı şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan 9 ümumtəhsil məktəbi , 4 səhiyyə müəssisəsi, 2 məktəbdənkənar müəssisə və 9 məktəbəqədər təlim-tərbiyə müəssisəsi, 3 texniki peşə liseyi, 1 musiqi məktəbi , Bakı Humanitar Kolleci, Bakı Turizm Peşə Məktəbi və Mərkəzləşdirilmiş kitabxana, Kənd Təsərrüfatı Muzeyi mövcuddur.

Hesabat dövründə Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən geniş abadlıq-quruculuq işlərinin aparıldığını deyən D.Şükürova bu müddət ərzində 14 evin fasadının rəngləndiyini, 13.910 kv.m dam örtüyünün təmir edildiyini, 36 binanın girişlərinin yenidən qurulduğunu, 36 ədəd giriş qapısı, 487 kv.m plastik pəncərə qoyulduğunu və 4 həyətin abadlaşdırıldığını diqqətə çatdırıb. Hesabat ilində nümayəndəliyin ərazisində 4125 kv.m qazon salınıb, 24 ədəd oturacaq yerləşdirilib, 1375 ədəd gül kolu, 175 ədəd ağac əkilib. Bundan əlavə, 5 ədəd günlük, 12 ədəd uşaq əyləncə predmetləri quraşdırılıb, məhəllədaxili həyətlərə 7375 kv.m, magistral yola isə 22.000 kv.m asfalt vurulub.

Məruzəçi xatırladıb ki, ötən müddət ərzində rayon ərazisində birinci Avropa Oyunlarına hazırlıqla əlaqədar əhəmiyyətli işlər görülüb. 2015-ci ilin ən yaddaqalan hadisələrindən biri isə Prezident İlham Əliyevin ardıcıl olaraq rayona 5 dəfə səfər etməsi olub.

Natiq bildirib ki, hesabat dövründə bayramlarda və əlamətdar günlərdə nümayəndəliyin ərazisində yaşayan 100-dən çox ailəyə ərzaq bağlaması verilib.

D.Şükürova məruzəsində nümayəndəliyin ərazisində yerləşən çoxmənzilli yaşayış binalarında (Mənzil-Kommunal Təsərrüfatı Birliyinin tabeliyində olan) mənzil qanunvericiliyinə uyğun olaraq, mənzil fondunun yeni idarəetmə üsuluna keçirilməsi (Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətinin yaradılması) ilə əlaqədar müvafiq işlər görüldüyünü də yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, ötən il nümayəndəliyin ərazisində yaşayan vətəndaşlardan Binəqədi RİH-ə və digər dövlət qurumlarına, ümumilikdə, 862 müraciət ünvanlanıb. Onlardan 572-si şikayət, 2-si isə təklifdir. Daxil olan müraciətlər sırasında əsasən mənzil məsələləri, o cümlədən mənzillə təmin olunma, fərdi ev tikintisi, torpaq verilməsi, lift, təmir məsələləri, abadlıq-quruculuq işləri, qanunsuz tikintilər, tikinti materiallarının yığışdırılması və digər mövzular çoxluq təşkil edir. Məruzədə qeyd edilib ki, hesabat ilində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının nümayəndəliyin inzibati ərazisində 8 səyyar görüşü və 2 qəbulu – "Açıq qapı" təşkil olunub. Görüşlərdə minə yaxın vətəndaş iştirak edib və 8 tədbirlər planı təsdiq edilərək aidiyyəti qurumlara göndərilib.

Sonra Binəqədi bələdiyyəsinin sədri Sitarə Cabbarova hesabat ilində görülən işlər barəsdə geniş məruzə ilə çıxış edib. Bildirilib ki, ötən il yanvarın 26-da bələdiyyənin ilk iclası keçirilərək təşkilati məsələlərə baxılıb, sədr, sədr müavinləri, 5 daimi və 1 başqa komissiya yaradılıb. Bələdiyyənin fəaliyyət istiqamətləri, həyata keçirilmiş layihələr, görülmüş və görüləcək işlər barədə məlumat verən sədr qeyd edib ki, Binəqədi bələdiyyəsinin ərazisi 295.73 ha olmaqla, 6, 7, 8, 9 və 9a mikrorayonlarını, Naxçıvani və Dərnəgül yaşayış massivlərini və Bakı Şəhər İcra Hakimiyyətinin 2005-ci il tarixli qərarı ilə ayrılmış 1000 ha yaxın Goradil, Fatmayı, Novxanı bağlar massivini və onlara bitişik çimərlik zonalarını əhatə edir. Qeyd olunub ki, 90.600 nəfərə yaxın əhalisi olan Binəqədi bələdiyyəsi ötən dövr ərzində öz fəaliyyətini mövcud qanunvericiliyə və təsdiq edilmiş iş planına əsasən həyata keçirib. Hər ay bələdiyyənin ümumi iclasları keçirilib, baxılmış məsələlərlə bağlı qərarlar qəbul olunub və icrası təmin edilib. Baxılmış işlər arasında daimi komissiyaların və şöbələrin fəaliyyətinə dair hesabatlar, sosial maliyyə məsələləri, təmir-tikinti və abadlıq işləri, vətəndaşların müraciətlərinə baxılması məsələləri olub. Hesabat ilində 22 iclas keçirilib, 108 qərar qəbul edilib.

Sədr bildirib ki, 2015-ci ildə vətəndaşların qəbulu və müraciətlərinə baxılmasına xüsusi diqqət yetirilib: "Ötən il vətəndaşlardan bələdiyyəmizə 633 müraciət daxil olub. Bunlardan 109-u sahibkarlıqla məşğul olmaq üçün arayışların verilməsi, 65-i maddi yardım göstərilməsi, 149-u bağ sahələrində kiminsə qeydiyyatda olub-olmaması, 82-si vətəndaşın adına torpaq sahəsinin olub-olmaması, 19-u Dövlət Sosial Müdafiə Fonduna arayışlar, 38-i hərbi hissələrə müraciətlər, 31-i torpaq sahələrinin addan-ada keçirilməsi,76-sı bələdiyyəyə vergi və ya əmlak borcunun olub-olmaması,70-i torpaq sahəsinin ayrılması ilə bağlıdır. Digər müraciətlər, əsasən, işlə təmin olunmaq və işdən çıxmaq, torpaq sahəsinin zəbt edilməsi, həyətyanı sahələrin suvarılması, evdə təmir işlərinin aparılması, sənədlərin dublikatlarının verilməsi, dönmə nöqtələrinin göstərilməsi və təşkilatlara müvafiq arayışların verilməsi və s. ilə əlaqəli olub". Məruzədə vurğulanıb ki, hesabat ilində bələdiyyə sədri və müavinləri, daimi komissiya sədrləri, eləcə də şöbə müdirləri tərəfindən 376 nəfər qəbul edilib. Yerlərdə səyyar görüşlərin keçirilməsi də diqqət mərkəzində saxlanılıb. Mütəmadi olaraq rayon ağsaqqalları, gəncləri, ziyalıları ilə çoxsaylı görüşlər təşkil edilib: "Sakinlərin bələdiyyənin fəaliyyətini mütəmadi izləyə bilməsi, eləcə də öz müraciətlərini bələdiyyəyə gəlmədən ünvanlaya bilməsi üçün sosial şəbəkələrdə, o cümlədən FB sosial şəbəkəsində səhifəmiz yaradılıb. "Azərbaycanda yerli demokratiya həftəsi" çərçivəsində keçiriləcək tədbirlər haqqında əhalini əvvəlcədən məlumatlandırmaq məqsədilə təşviqat işləri görülüb, elan və plakatlar vurulub, tədbirlər planı hazırlanıb, zonalar üzrə sakinlərlə 10-a yaxın səyyar görüş keçirilib, "Açıq qapı" günü təşkil olunub. Tədbir çərçivəsində, həmçinin, bələdiyyəmizdə "poçt qutusu" da yerləşdirilib, sakinlərin müraciətlərini anonim şəkildə ünvanlaması təmin edilib. Bütün bu tədbirlər vətəndaş-bələdiyyə münasibətlərinin inkişafina və şəffaflığın təmin olunmasına xidmət edir".

Natiq bildirib ki, 2015-ci ildə bələdiyyənin ünvanına ayrı-ayrı təşkilatlardan 476 sənəd daxil olub. Hesabat ilində bələdiyyənin ərazisində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının sakinlərlə 12 görüşü keçirilib, bunlardan 2-si "Açıq qapı" çərçivəsində baş tutub. Görüşlərdə səslənilən məsələlərdən 5-i bələdiyyəyə aid olub.

Bələdiyyə ilə əhali arasında münasibətlərin demokratik şəkildə həllində məhəllə komitələrinin rolunun vacibliyini önə çəkən sədr bu komitələrin əhali arasında geniş nüfuza malik olduğunu deyib. Hazırda ərazidə 60-dan çox məhəllə komitəsi fəaliyyət göstərir.

Sədr vurğulayıb ki, bələdiyyələr tərəfindən verginin hesablanması və toplanmasında mövcud çətinliklərin aradan qaldırılması üçün Bələdiyyə Vergi İnformasiya Sisteminin (BVİS) yaradılması da zərurətə çevrilib. Bu səbəbdən də Binəqədi rayonunun 5 bələdiyyəsində Vergilər Nazirliyinin dəstəyi ilə BVİS pilot layihəsinin tətbiqinə başlanılıb. Bu layihə şəffaflığın təmin edilməsinə, bu sahədə bəzi çətinliklərin aradan qaldırılmasına, bələdiyyə büdcəsinin formalaşmasına əlverişli şərait yaradıb. Qeyd olunub ki, hesabat dövründə bələdiyyə büdcəsinə 447.018 manat gəlir daxil olub, xərclər isə 443.077 manat təşkil edib: "İcra hakimiyyəti başçısının tövsiyəsinə uyğun olaraq, Novxanı, Göradil, Fatmayi bağları, çimərlik və yaşayış sahələrinə xüsusi diqqət ayırırıq. Sözügedən ərazidə məişət tullantılarının yığılması və daşınması gündəlik həyata keçirilir, eyni zamanda müxtəlif iri miqyaslı təmizlik aksiyaları təşkil olunur". Hesabat ilində sakinlərin sosial problemlərinin həlli istiqamətində də bələdiyyə səylərini əsirgəməyib. Belə ki, tənha qocalar, əlillər, şəhid və aztəminatlı ailələrin yaşam şəraiti ilə maraqlanılıb və bu məqsədlə bələdiyyə büdcəsindən 2400 manat vəsait xərclənib. Ötən ilin fevralında rayon ərazisində fəaliyyət göstərən bələdiyyələr və MKTB-nin dəstəyilə Novxanı, Fatmai, Goradil bağ massivlərində təmizlik aksiyaları həyata keçirilib, aztəminatlı ailələrə yardımlar olunub. Sonda bələdiyyə sədri sakinləri narahat edən problemlərdən də söz açıb.

Tədbirin sonunda Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini V.İsmayılov hər iki quruma gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Hesabat yığıncağı keçirilib

Yanvarın 22-də Sulutəpə yaşayış massivində yerləşən 313 saylı orta məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən, 28 May qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin və Xocəsən bələdiyyəsinin 2015-ci ilin yekunları və 2016-cı ildə qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşov, qəsəbə sakinləri və qonaqlar iştirak ediblər.

Yığıncağı giriş nitqi ilə açan Vüsar İsmayılov qəsəbədə görülən və görülməsi nəzərdə tutulan işlərdən danışıb. Bundan sonra hesabat məruzəsi ilə çıxış etmək üçün söz Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Əlikram Haqverdiyevə verilib. Nümayəndəlik haqqında qısa məlumat verən Ə.Haqverdiyev bildirib ki, Xocəsən qəsəbəsi iki inzibati ərazi vahidini, Sulutəpə və Xocəsən qəsəbələrini əhatə edir. Hazırda qəsəbənin əhalisinin sayı 21800 nəfərdir. Qəsəbə ərazisində Beynəlxalq Avtovağzal, 1 universitet, 3 məktəb, 1 bağça, 2 tibb məntəqəsi, 1 kitabxana, 1 klub, 2 poçt, 4 sənaye müəssiəsi, nəqliyyat, tikinti, məişət və digər müəssisələr yerləşir. Məruzəçinin sözlərinə görə, nümayəndəlik hesabat ilində öz fəaliyyətini qəsəbənin sosial-iqtisadi inkişafını sürətləndirmək, mövcud sosial problemləri həll etmək və sakinlərin təklif və tələblərini nəzərə alaraq icrasını təmin etmək istiqamətində qurub. Bildirilib ki, ötən il vətəndaş məmnunluğunu təmin etmək məqsədilə qəsəbə ərazisində sakinlərlə rayon icra hakimiyyəti başçısının iki səyyar görüşü keçirilib: "Qəsəbə sakinləri ilə keçirilən hər iki görüş sakinlərin böyük məmnunluğuna səbəb olub. Həmin görüşlərin dialoq şəklində qurulması yenilik olmaqla bərabər, əhali tərəfindən rəğbətlə qarşılanıb. Görüşlərdə sakinlər tərəfindən qaldırılan məsələlərə diqqətlə yanaşılıb və bir sıra problemlərin həlli istiqamətində xidmət və təsərrüfat rəhbərlərinə tapşırıqlar verilib".

Hesabat dövründə qəsəbə icra nümayəndəliyi öz işini "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə uyğun olaraq təklif və iradları nəzərə alaraq qurub. Təsdiq olunmuş qrafikə əsasən, nümayəndəlikdə əhalinin qəbulu həftənin I və III günləri aparılmalı olsa da, vətəndaşların qəbulu gündəlik həyata keçirilib: "Nümayəndəliyimiz tərəfindən ötən ilin yanvar ayından başlayaraq, ayda 2 dəfə olmaqla, vətəndaşların səyyar qəbulu təşkil edilib. Keçirdiyimiz səyyar görüşlərdə inzibati ərazidə yerləşən xidmət sahələrinin və bələdiyyənin iştirakı təmin olunub və qaldırılan məsələlər protokollaşdırılaraq, səlahiyyətimiz daxilində həll edilib". Natiq bildirib ki, hesabat ilində Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidmətinə 416 müraciət daxil olub və onlardan 356-sı tam həllini tapıb, 12 məsələ qismən həll edilib. 48 məsələ ilə əlaqədar müvafiq izahatlar verilib.



Məruzədə qeyd olunub ki, hesabat dövrü ərzində Prezident İlham Əliyev Bakı Atıcılıq Mərkəzinin, Beynəlxalq Avtovağzal ərazisində Bakı dairəvi yolunu birləşdirən körpünün və Stent Atıcılığı Kompleksinə gedən yolun açılışı məqsədilə Binəqədi rayonuna səfər edib. Abadlıq işlərindən danışan icra nümayəndəsi vurğulayıb ki, ötən il paytaxtda keçirilən Avropa Oyunları ilə əlaqədar marşrutun keçdiyi "Motodrom" ərazisində Atıcılıq kompleksinə gedən yolun kənarlarında 2500 kv.m yeni hasar inşa edilib, yolkənarı obyektlərin fasadı betopan materialdan ibarət müasir tipli odadavamlı fasad örtüyü ilə üzlənib, 650 kv.m metal konstruksiyadan ibarət 12 metr hündürlüyündə dekorativ arka quraşdırılıb, 3835 kv.m piyada səki yolu salınıb, 23 ədəd küçə işığı dirəyi quraşdırılıb, Beynəlxalq Avtovağzala qədər olan hissədə yol kənarındakı dekorativ hasara 6502 kv.m fasad işıqlandırma sistemləri cəkilib.

28 May qəsəbəsinin sosial-iqtisadi inkişafının yekunları ilə bağlı məruzə ilə çıxış edən qəsəbə icra nümayəndəsi Əlipaşa Xankişiyev bildirib ki, qəsəbə Binəqədi rayonunun inzibati ərazisinə daxil olan, rayon mərkəzindən 20 km uzaqlıqda və Abşeron yarımadasının qərbində yerləşən yeni yaşayış məntəqəsidir. İnzibati ərazisi 300 hektar təşkil edən qəsəbədə 10.000 nəfərə yaxın əhali yaşayır, bunlardan 1418 nəfəri rəsmi qeydiyyatda olan, digərləri isə qeydiyyatsız yaşayanlardır, 386 nəfəri isə müvəqqəti məskunlaşmış məcburi köçkündir.

Qəsəbədə 306 saylı 507 şagird yerlik orta ümumtəhsil məktəbi, 329 saylı 120 yerlik uşaq bağçası və tibb məntəqəsi, poçt şöbəsi fəaliyyət göstərir. Hesabat ilində qəsəbədaxili yolların bərpası ilə bağlı bir sıra işlərin görüldüyünün deyən icra nümayəndəsi qeyd edib ki, ötən il IX və X küçələrdə əhalinin gediş-gəlişini qismən asanlaşdırmaq üçün yollara karbonat tökülərək hamarlanıb, İzlivnoy küçəsində yolların təmir və bərpasına diqqət yetirilib. Ötən dövr ərzində qəsəbədə su-kanalizasiya problemlərinin aradan qaldırılması istiqamətində də işlər davam etdirilib, bir neçə küçədə 320 metr su, 285 metr kanalizasiya xətti yenidən qurulub. Ərazinin qazla təchizatı tam təmin olunub. Qəsəbəyə fasiləsiz elektrik enerjisinin verilməsi üçün ərazidə olan 2 ədəd elektrik paylayıcı transfarmator yenilənərək daha güclüsü ilə əvəz edilib.

Məruzədə bildirilib ki, qəsəbədə məişət tullantılarının yığılması və daşınıb zərərsizləşdirilməsi Xocəsən bələdiyyəsi tərəfindən həyata keçirilir və bu işlərə daim nəzarət edilir. Qəsəbə yeni yaşayış məkanı olduğu üçün bir sıra sosial obyektlərin və digər qurumların olmaması səbəbindən, sakinlərin əsas iş yeri və eləcə də məşğuliyyət sahələri əsasən kənar ərazilərdə formalaşıb: "Vətəndaşların ərizə, şikayət və təkliflərinə diqqətlə yanaşılır, onları narahat edən problemləri imkanlarımız və səlahiyyətlərimiz daxilində operativ həll etməyə çalışırıq. Əhali məmnunluğunu təmin etmək məqsədilə onların müraciətinə diqqətlə yanaşılır və daim nəzarətdə saxlanılır".

Tədbirdə çıxış edən Xocəsən bələdiyyəsinin sədri Anar Abbasov hesabat ilində görülən işləri yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, bələdiyyə 2003-cü ildən fəaliyyətə başlayıb və ərazisi 3 qəsəbə - Sulutəpə, Xocəsən, 28 May qəsəbələri , "Motodrom" və "Çiçək" yaşayış massivlərini əhatə edir. Bələdiyyənin büdcəsi, gəlirləri və xərcləri barədə məlumat verən sədr qeyd edib ki, keçən bir il ərzində Xocəsən bələdiyyəsinin büdcəsinə 290703.05 vəsait daxil olub və təyinatı üzrə xərclənib. Ötən müddət ərzində Xocəsən bələdiyyəsi tərəfindən 16 bələdiyyə iclası keçirilib, 124 qərar qəbul edilib: "Hesabat ilində bələdiyyəyə vətəndaşlardan və müxtəlif təşkilatlardan 486 məktub daxil olub. Bunlarla yanaşı, Xocəsən bələdiyyəsinə 195 yazılı müraciət daxil olub ki, bunlardan 70-i torpaqla, 79-u müxtəlif sənədlərin verilməsi, 20-si tikinti, 22-si birdəfəlik maddi yardımlar barədə, digərləri isə nəqliyyat, kanalizasiya, yolların təmiri ilə bağlıdır. Daxil olmuş müraciətlərin 141-i müsbət həll edilib, 20-si qismən, 23-ü ilə bağlı isə müvafiq izahat verilib. 6 müraciət əsassız sayılıb, 3 nəfərin müraciəti Dövlət Proqramında nəzərdə tutulub, 2 müraciət isə aidiyyəti üzrə göndərilib".

Natiq bildirib ki, bələdiyyə hesabat ilində müxtəlif humanitar tədbirlər həyata keçirib: "Artıq bu kimi tədbirlər ənənə halını alıb. Bayramlarda imkansız şəxslərə maddi yardım göstərilib, uşaqlarına sünnət edilib. Hazırda Xocəsən bələdiyyəsinin 5 massivində 36 məhəllə komitəsi fəaliyyət göstərir. Qəsəbədə həmçinin Ağsaqqallar Şurası yaradılıb. Hesabat ilində Xocəsən bələdiyyəsində sakinlərlə 15 səyyar görüşlər keçirilib və mövcud problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülüb. Həmçinin ərazidə yerləşən təhsil ocaqlarında bir sıra dövlət tədbirləri və milli bayramların keçirilməsi ilə əlaqədar şagirdlərlə də görüşlər təşkil olunub".

Bələdiyyə sədri vurğulayıb ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təbiətin və ekoloji mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması istiqamətində ötən müddətdə çoxsaylı tədbirlər və layihələr həyata keçirilib.

Bələdiyyəsi ərazisində bərk məişət tullantıları hər gün 4-5 reys olmaqla poliqona daşınaraq zərərsizləşdirilib. Ərazidə 242 ədəd müasir tipli məişət tullantılarının yığılması ucun konteynerler yerləşdirilib, 6 yerdə məişət tullantılarının müvəqqəti toplanması meydançaları tikilib. Bələdiyyə sədri həmçinin qeyd edib ki, hesabat ili ərzində bələdiyyənin uğurları ilə yanaşı, bəzi problemləri də mövcuddur: "Ərazidə ən aktual problem vergilərin ödənilməsi ilə bağlı əhali arasında maariflənmənin zəif təşkili və ərazidən yığılan vergilərin nəzərdə tutulandan az olması ilə bağlıdır. Bələdiyyə büdcəsinin yalnız yerli vergi və ödənişlərdən formalaşdığını nəzərə alsaq, problemin ciddiliyi narahatlıq doğurur. Bununla bağlı bələdiyyəmizin əməkdaşları daim əhali arasında maarifləndirmə işləri aparır, vergilərin ödənməsinin əhalinin xeyrinə olduğunu, dövlətimizin vergi sahəsində keçirdiyi islahatların fonunda yerli vergilərin bələdiyyə büdcəsi üçün vacibliyini izah edirlər".

Məruzələr ətrafında müzakirələrdə çıxış edənlər hesabatların qənaətbəxş olduğunu bildiriblər. Sonda yığıncağın qərar layihəsi oxunub və RİH başçısının müavini Vüsar İsmayılovun yekun çıxışı ilə başa çatıb.

## Qaliblərə sertifikat təqdim olunub



Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VII qrant müsabiqəsinin qalibi, Akademiyanın tələbəsi Mahmud Mahmudovun "Krossvord yarışması" adlı fərdi layihəsinin bağlanış mərasimi keçirilib.

Tədbirdə Akademiyanın Tədris işləri üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent Sirac Məmmədov, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə, layihənin rəhbəri Mahmud Mahmudov, tələbələr iştirak ediblər. Bağlanış mərasimində yarışda uğur qazanmış 30 nəfərə sertifikat təqdim olunub. "Krossvord yarışması" 3 mərhələdə keçirilib və yarışa ümumilikdə 100 nəfər tələbə qatılıb.

## Şagirdlər rayon birinciliyində



Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2015-ci il 29 sentyabr tarixli 181 nömrəli sərəncamına əsasən, rayon orta ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idmanı təbliğ və inkişaf etdirmək, şagirdləri idmanla fəal məşğul olmağa cəlb etmək, həmçinin istedadlı yeniyetmə və gəncləri aşkar etmək məqsədilə silsilə tədbirlər həyata keçirilir.

Yanvarın 8-dən 22-dək 135 №-li tam orta məktəbdə 2015-2016-cı tədris ili ərzində keçirilməsi nəzərdə tutulan Binəqədi rayon məktəblilərinin XXVIII Spartakiadasının proqramına daxil olan voleybol üzrə rayon birinciliyi keçirilib. Oğlanlar arasında təşkil olunan yarışda 314 №-li tam orta məktəbin komandası I yeri tutub, 284 və 3 №-li tam orta məktəblərin komandası isə müvafiq olaraq II, III yerləri bölüşdürüblər.




## ELAN

**Binəqədi qəsəbəsində yerləşən "Cami" Dini Icması ləğv edildiyindən fəaliyyəti müvəqqəti olaraq dayandırılıb.**

# Yeni sistem şəffaflığa təminat verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 fevral 2015-ci il tarixli Fərmanının icrası ilə əlaqədar olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ünvanlı dövlət sosial yardımı sistemi üzrə yaradılmış Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) Binəqədi rayonunda sınaq işlərinə başlanılıb.



Bu sistem vətəndaşlara ünvanlı dövlət sosial yardımının alınması üçün elektron formada müraciət etmək imkanı verir. Yardımın alınması üçün elektron formada müraciət VEMTAS-da qəbul ediləcək. Vətəndaşların ailələrinin ünvanlı dövlət sosial yardımı almaq hüququna baxılması üçün lazımi arayış və məlumatlar artıq onlardan tələb olunmayacaq, aidiyyəti qurumların informasiya resurslarından elektron qaydada əldə ediləcək. Bununla əlaqədar olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Elektron hökumət" portalı üzərindən 20 qurumun müvafiq informasiya resurslarına çıxışının təmin olunması nəzərdə tutulur. Həmin qurumlardan artıq 12-si tərəfindən müvafiq informasiya sistemləri və servislərin portala inteqrasiyası işləri başa çatdırılıb. Digər qurumlar tərəfindən də bu yöndə işlər son mərhələdədir.

Sakinlərə ünvanlı yardım almaq üçün elektron formada müraciət edilməsində ilkin texniki köməkliyin göstərilməsi üçün yardım masaları da fəaliyyət göstərir. Hər bir yardım masasında bu elektron xidmətdən yararlanmaq üçün iki kompüter avadanlığı quraşdırılıb. Kompüterlərdən biri sərbəstdir və vətəndaşların ünvanlı dövlət sosial yardımı almaq məqsədilə özlərinin sərbəst şəkildə elektron müraciət etmələri üçündür. Digər kompüter önündə isə mərkəzlərin əməkdaşları əyləşib və vətəndaşlar özləri bacarmadıqları hallarda onların köməyindən istifadə edirlər. Müvafiq qurumların informasiya resurslarından əldə edilmiş məlumatlar əsasında ünvanlı sosial yardımı üçün müraciət edən vətəndaşın və ailəsinin gəlirləri, aylıq xərcləri, maddi-məişət şəraiti üzrə ətraflı qiymətləndirmələr aparıldıqdan sonra ailəyə yardımın təyin olunub-olunmaması barədə qərar avtomatik şəkildə qəbul olunacaq.

Yardımın ödənilməsi məqsədilə həmin şəxsə dair bank hesabının açılması üçün sistem tərəfindən müvafiq banka sifarişin verilməsi də avtomatik olaraq həyata keçiriləcək. Qəbul edilmiş qərar, ünvanlı dövlət sosial yardımının alınması üçün müvafiq bankın ünvanı və bank kartının hansı tarixdə təhvil götürülməli olduğu barədə məlumatlar ailəni təmsil edən şəxsin elektron ünvanına və yaxud ismarıc formasında mobil telefonuna göndəriləcək.

Yeni sistem aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı ilə təminatı sahəsində məmur-vətəndaş ünsiyyətinin aradan qalxmasına, həmin ailələrin bu yardım növü üzrə sürətli, rahat və şəffaf xidmətlərə çıxışına imkan yaradacaq.

# İstedadlı uşaqlar üçün geniş imkanlar yaradılır

Şagirdlərin asudə vaxtının düzgün və səmərəli təşkil olunması onların dünyagörüşünün formalaşmasına, həyata baxışına birbaşa təsir edir. Asudə vaxtın səmərəli təşkilində dərnəklərin rolu danılmazdır. Binəqədi rayonun ərazisində yerləşən orta ümumtəhsil müəssisələrində fəaliyyət göstərən dərnəklərdə uşaqların asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, onların istedad və bacarıqlarının göstərilməsi üçün geniş imkanlar yaradılır.



Binəqədi qəsəbəsindəki 179 saylı orta məktəbdə "Poeziya yarpaqları" adlı ədəbiyyat dərnəyi artıq uzun müddətdir ki, fəaliyyət göstərir. Dərnəyin rəhbəri Pakizə Seyidova bizimlə söhbətində bildirdi ki, dərnək məşğələlərində klassik və müasir Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələri təhlil olunur, xüsusilə də məktəb dərsliklərinə düşməyən sənət əsərləri barədə uşaqlara ətraflı məlumat verilir. Məşğələlərdə bədii yaradıcılığa maraq göstərən məktəblilərlə ayrıca məşğul olunur, onların yazdıqları şeir və hekayələr müzakirə edilir, tövsiyələr verilir: "Hazırda dərnəyimizin 16 üzvü var. Burada məktəblilər öz istedadlarını, bədii-estetik zövq və mənəvi tələbatlarını, incəsənətə olan meyillərini üzə çıxara bilirlər. Onlar müxtəlif mövzularda şeirlər yazır, bədii qiraətlə məşğul olurlar. Bacarıqlı uşaqlardan Zəhra Əliyeva, Xədicə İsmayılova, Ceyran Rüstəmova, İfrat Həsənov, Tunar Əlizadə və digərlərinin adlarını çəkmək olar".

Ötən ilin mart ayında məktəbdə "Hər şey vətən üçün" devizi altında keçirilən xeyriyyə aksiyasında təşkilati işlərdə fərqləndiyinə görə, Pakizə Seyidova Binəqədi Rayon İcra Hakimiyyəti başçısının diplomu ilə təltif olunub. Oktyabr ayında keçirilən "Bir payız axşamı" adlı şeir müsabiqəsində şagirdlər nəyə qadir olduqlarını göstəriblər. Ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş inşa müsabiqəsində dərnəyin fəal üzvlərindən sayılan Xədicə İsmayılova birinci olub. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı təşkil olunan "Hamımız bu vətənin zərrəsiyik" adlı ədəbi-bədii gecədə bacarıqlı uşaqlar milli-mənəvi dəyərlər, vətənpərvərlik mövzusunda şeir söyləyib, səhnəciklər nümayiş etdiriblər. Dərnəyin üzvləri məktəbdə əlamətdar günlər, bayramlar münasibətilə keçirilən bütün tədbirlərin ssenarinisini də özləri hazırlayırlar.

Söhbət əsnasında Pakizə müəllimə mütaliənin məktəblilərin tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini dedi. Onun sözlərinə görə, kitabı bütünlüklə oxumaq, əsəri dərk etmək mütaliə mədəniyyətinin vacib amilidir: "Dərnəyimizin üzvləri əsasən B.Vahabzadənin, M.Arazın, Anarın, Elçinin R.Rövşənin, İ.Əfəndiyevin və s. şair və yazıçıların əsərlərini daha çox oxuyurlar. Məlumdur ki, yaradıcılıq qabiliyyəti hər bir uşaqda mövcuddur və biz uşaqlarda bu keyfiyyətləri üzə çıxarmalıyıq".

"Poeziya yarpaqları"nın üzvləri indi Xocalı faciəsinə həsr olunmuş tədbirə hazırlaşırlar. Onlar faciə ilə bağlı tamaşanın da nümayişini planlaşdırırlar.

## Layihə uğurla başa çatdı



Yanvarın 25-də Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VII qrant müsabiqəsinin qalibi, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbəsi Anar Əliyevin "Sığortalı gəncəm" adlı fərdi layihəsinin bağlanış mərasimi keçirilib. Tədbirdə YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva, rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, gənclər iştirak ediblər.

Tədbirdə çıxış edənlər layihənin uğurla həyata keçirilməsi münasibətilə Anar Əliyevi təbrik edib və gələcək fəaliyyətində ona uğurlar arzulayıblar. Sonra layihə iştirakçılarına serifikatlar təqdim olunub.

## Binəqədili şagird rəsm müsabiqəsinin qalibidir

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən Abşeron rəsm qalereyasında 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünə həsr olunmuş "20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir" mövzusunda rəsm sərgisi keçirilib. Tədbirdə Baş İdarənin rəisi Raqif Abbasov, qalereyanın direktoru Eldəniz İbrahimov, Azərbaycan Rəssamlar İttifaqının katibi Ağabəy İbrahimov iştirak ediblər.



60-a yaxın rəsm əsərinin nümayiş etdirildiyi sərgidə rəsmlər, əsasən, qrafik janrında, müxtəlif texnikalarda işlənilib. Yeniyetmə və gənc rəssamlar quaş, pastel, sulu boya, karandaş, tuş və s. materiallardan məharətlə istifadə edərək 20 Yanvar faciəsinin real görüntülərini yaradıblar.

Tədbirdə iştirak edən qonaqlar sərgiyə baxış keçirdikdən sonra Bakı şəhər orta ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən rəsm müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi olub. Sevindirici haldır ki, Binəqədi rayon 115 №-li tam orta məktəbin 11a sinif şagirdi Fidan Cəfərova I yerə layiq görülüb.